

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP Mərkəzi Aparatında müşavirə keçirilib



4

SƏS

№ 129 (7054)

23 iyul 2024-cü il.
Qiymәti 60 qәpik

# Həqiqətin və qətiyyətin gücü ilə VERİLƏN DƏRS!




6

# Şuşa Qlobal Media Forumundan verilən mesajlar



3

## XİN: "Aİ-nin Ermənistana hərbi yardım göndərməsi qərarı olduqca yanlış və təhlükəli addımdır"



5

## "Kart atım, kömək elə" - rəqəmsallaşan dilənçilik



11

## Dünyamızın məhv olmaqda olan ağciyərləri



15

## Sağlığında mirası başqa şəxsə verənin ailəsinə pay düşür?



16

## Qərbə çox ciddi mesaj



8






# Şuşa Qlobal Media Forumundan verilən mesajlar

**Prezident İlham Əliyev: "Biz istərdik ki, Azərbaycanda və regionda baş verən hadisələr obyektiv şəkildə işıqlandırılsın"**

Qarabağın incisi, Qafqazın Konservatoriyası kimi mənəviyyatımızın və mədəniyyətimizin paytaxtı olan Şuşa beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edir. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman ordu-








muz tərəfindən azad edilən Şuşa bu gün tək regionun deyil, bütövlükdə Türk-İslam dünyasının mərkəzinə çevrilib. Bu baxımdan Şuşada keçirilən beynəlxalq tədbirlər həm mədəniyyət paytaxtımızın, həm də ölkəmizin dünyada tanınmasında mühüm rol oynayır. Hər bir azərbaycanlı üçün əlçatmaz arzuya çevrilən Şuşa bütün dünya üçün beynəlxalq səviyyəli tədbirlərin, siyasi diskussiyaların, mədəniyyət və sülh məkanına çevrilib. Milli mətbuatımızın 149 illiyi münasibətilə Şuşa şəhərində keçirilən "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" adlı Qlobal Media Forumunun iştirakçıları Azərbaycanın mədəniyyət paytaxtı Şuşada bir araya gəldilər. Sayca ikinci dəfə təşkil edilən Şuşa Qlobal Media Forumunda ümumilikdə 50-yə yaxın ölkədən 150-dən çox xarici qonaq, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media subyekti iştirak edib. Forum çərçivəsində "Təsirin qiymətləndirilməsi: Dezinformasiyanın əhatə dairəsini müəyyənləşdirmək", "Dezinformasiyaya qarşı daha davamlı cəmiyyət qurmaq üçün siyasət və təşəbbüslər", "Süni intellektin reallığa, mediaya və dezinformasiyaya təsiri: Media savadlılığının təşviqi" və "İqlim hərəkatı və media" mövzularında panel sessiya keçirilib. Panel sessiyalarda müxtəlif ölkələrdən olan rəsmilər, media və vətəndaş cəmiyyəti, dövlət və biznes nümayəndələri, beynəlxalq təşkilatların təmsilçiləri və media ekspertləri ətraflı fikir və təcrübə mübadiləsi aparıblar. Bununla yanaşı, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar həyata keçirilən tədbirlər və hazırlıq işləri, ölkə səviyyəsində iqlim dəyişikliyinin təsirləri ilə aparılan mübarizə, azad edilmiş ərazilərdə bərpa və yenidənqurma prosesində sərgilənən dayanıqlı yanaşma barədə məlumat verilib.

## "CƏMİYYƏT GÖRÜR Kİ, UZUN İLLƏR CAN ATDIĞI MƏQSƏDLƏR ARTIQ REALLIĞA ÇEVRİLİBDİR"

Mötəbər tədbirlər meydanına çevrilən Şuşada Qlobal Media Forumunun keçirilməsi təsadüfi deyildi. Əlbəttə ki, Şuşa bizim tarixi qələbəmizin rəmzidir. 22 İyul – Milli Mətbuat Günü münasibətilə Şuşada Beynəlxalq Media Forumunun keçirilməsi dünyanın sürətlə inkişaf edən ölkələri sırasında yeri olan Azərbaycanın uğurlarının dünyaya çatdırılmasında mühüm əhəmiyyət kəsb edir. Bu gün ölkəmizdə media azadlığı təmin olunub, internet media inkişaf edib, jurnalistlərin sərbəst fəaliyyəti üçün lazımi şərait yaradılıb. Azərbaycan mediası hazırda bölgə üçün ən qabaqcıl nümunələrdən birinə çevrilib. İyulun 20-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda Azərbaycan Prezidenti İlham Əliyevin açılış mərasimində dünyanın müxtəlif ölkələrindən jurnalistlərin, beynəlxalq ekspert və politoloqların suallarına verdiyi ətraflı cavablar bu günün reallıqlarını tam əks etdirir. Artıq bu forum bir ənənəyə çevrilib. "Deyərdim ki, mən ötən forumdan bəri regionda və ölkədə baş verən hadisələrlə bağlı geniş danışmağa başlasam, bizim vaxtımız qalmaz. Bu, təkcə media sahəsində deyil, ümumiyyətlə, ölkədə və regionda baş verən hadisələrdir.

Ardı Səh. 3

# Şuşa Qlobal Media Forumundan verilən mesajlar




Əvvəli-Səh-2

Cənubi Qafqaz regionuna gəldikdə deyə bilərəm ki, biz tarixi transformasiyanın şahidiyik, tarixi, geosiyasi dəyişikliklər baş verir. Ənənəvi ittifaqlar bir qədər zəifləyib və yeni əməkdaşlıq formatları meydana gəlib. Əlbəttə, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası, - bu, ötən ilin sentyabrında baş verdi, - ən mühüm hadisədir. Təkcə bu, birinci və ikinci forum arasında deyil, ümumiyyətlə, müasir tariximizdə mühüm hadisə oldu". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev ona ünvanlanan sualı cavablandırarkən bildirib: "Bundan əlavə bir çox hadisələr baş verdi və ümid edirəm ki, bütün bu hadisələr regionu daha proqnozlaşdırıla bilən edəcəkdir. Yəni, biz - bu regionun xalqları özümüzü təhlükəsiz hiss edəcəyik. Buna əminəm, münaqişələr və qarşıdurmalar keçmişdə qalıb. Füzuli hava limanından buraya səfər edərkən siz gördünüz ki, biz nəhəng yenidənqurma proqramı həyata keçiririk və sizin gördükləriniz, bəlkə bu işlərin heç beş faizi deyil. Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa işləri ilə bağlı biz çox nikbinik və Azərbaycan cəmiyyəti də olduqca nikbindir və bu işlərə çox həvəslə yanaşır. Bu, hər bir ölkənin müvəffəqiyyətə nail olması üçün əsas amildir. Burada rahatlıq və təhlükəsizlik vacib amildir. Eyni zamanda, gözləntilər vacibdir. Cəmiyyət görür ki, uzun illər can atdığı məqsədlər artıq reallığa çevrilibdir".

### "BİZ ETNİK TƏMİZLƏMƏNİN QURBANI OLMUŞUQ, İŞĞALIN QURBANI OLMUŞUQ"

"Biz istərdik ki, Azərbaycanda və regionda baş verən hadisələr obyektiv şəkildə işıqlandırılsın" deyən Prezident diqqətə çatdırıb: "Vaxt keçdikcə Qərbdə siyasi dairələrdə reallıq daha çox üzə çıxır və Azərbaycana bərabər tərəfdaş kimi yanaşılır".

44 günlük Vətən müharibəsində Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında mətbuatın rolunu da xüsusi qeyd etməliyik. Düzgün və qərəzsiz informasiyaları dünyaya yaymış oldular. Erməni terroru, təcavüzkar siyasəti qələmə alındı, reportajlar yayımlandı. Peşəkar mətbuat öz sözünü demiş oldu. Erməni lobbisinin Azərbaycana qarşı qərəzli fəaliyyətdə olduğu bir zamanda, Azərbaycan həqiqətləri olduğu kimi dünyaya çatdırıldı, erməni terrorizmi faktlar əsasında ifşa olundu. Anti-Azərbaycan kampaniyasına qarşı mübarizədə bütün güc və iradələr birləşdi. Müasir, güclü, beynəlxalq münasibətlər sistemində layiqli yeri olan Azərbaycan mediası informasiya cəbhəsində mübarizə apardı. Kütləvi dezinformasiya hücumlarının qarşısının alınmasında, cəmiyyətimizin operativ və düzgün məlumatlandırılmasında böyük rol oynamış oldu.

Prezident İlham Əliyevin Forumda bir çox məsələlər, o cümlədən regionda baş verən proseslərlə bağlı səsləndirdiyi fikirlər dünyaya bir mesaj oldu. Şuşada keçirilən Qlobal Media Forumunun Azərbaycan həqiqətlərinin və bölgədə baş verən proseslərin dünya ictimaiyyətinə çatdırılması baxımından mühüm hadisədir. "Biz etnik təmizləmənin qurbanı olmuşuq, işğalın qurbanı olmuşuq. Bu hal 30 il davam edib. Ancaq bizi dünyada təcavüzkar kimi təqdim edirdilər və medianın bu məsələni işıqlandırması, siyasi motivlərə söykənən mesajlar və qərarlar nəticəsində biz beynəlxalq sanksiyalara məruz qaldıq", - deyə Prezident bildirib. Məlumdur ki, Azərbaycana qarşı ədalətsiz müharibə aparıldı, onun ərazi bütövlüyünün pozulduğunu və torpaqlarının ermənilər tərəfindən işğal olunduğunu Birləşmiş Millətlər təşkilatı (BMT) təsdiq etdi. BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərini tərk etməsi haqqında 4 qətnamə (822, 853, 874, 884 saylı) qəbul etdi. Lakin erməni işğalçıları bu qətnamələri yerinə yetirmədilər. "ABŞ 1992-ci ildə Azərbaycana qarşı sanksiyalar tətbiq edibdir. Biz işğalın və təcavüzün qurbanı olmuşuq və o zaman konqresin ermənipərəst nümayəndələrinin səyləri nəticəsində bizə qarşı sanksiyalar tətbiq edildi. Yəni, bu, absurd bir vəziyyətdir ki, humanitar böhrana məruz qalan, bir milyon qaçqını olan, işğal edilmiş əraziləri tamamilə dağıdılan bir ölkə sanksiyalara məruz qalmışdır. O zaman bizim beynəlxalq media şəbəkələrinə o qədər də çıxış imkanımız yox idi" – deyən Prezident bildirib ki, biz müstəqilliyini yeni bərpa etmiş ölkə idik və biz ciddi səylər göstərməli idik.

### "ERMƏNİSTANIN BİZƏ VERDİYİ MİNA XƏRİTƏLƏRİ TAMAMİLƏ YARARSIZDIR"

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycanın döyüş meydanında qazandığı Zəfərdən sonra işğaldan azad olunan torpaqların abadlıq-qurucuqluq işlərinə başlayıb. Həyata keçirilən layihələr bu ərazilərin dirçəlməsinə səbəb olur. Təbii ki, qısa bir zaman məsafəsində bütün ərazilərin tam abadlaşması bir qədər çətindir. Belə ki, erməni təcavüzkarları işğal altında olan ərazilərimizi darmadağın edərək xarabazarlıqlara çeviriblər. Əlbəttə ki, bu gün işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi də əsas məsələlər sırasındadır. Bildiyimiz kimi, Ermənistan Ağdam, Füzuli və Zəngilan rayonlarında basdırdığı tank və piyada əleyhinə minaya dair xəritələrini Azərbaycana təhvil verib. Bu Azərbaycan Prezidentinin həyata keçirdiyi uzaqgörən siyasətinin məntiqi nəticəsi idi. İlk olaraq Ağdamda, daha sonra isə Füzuli və Zəngilanda basdırılmış minaların xəritələrinin Ermənistandan alınması on minlərlə vətəndaşın, o cümlədən, minatəmizləyənlərin həyatının təhlükədən xilası deməkdir. Minaların təmizlənməsi maliyə itkisi ilə yanaşı, vaxt itkisinə də səbəb olur. "Təəssüf ki, dünən insident baş verdi, üç nəfər mina partlayışı nəticəsində yaralandı. 2020-ci ildən bu yana 300-dən çox insan ya həlak olub, ya da yaralanıb. Təəssüf ki, nəhayət, Ermənistanın bizə verdiyi mina xəritələri tamamilə yararsızdır, onlar dəqiq deyil. Əvvəl biz onlardan xahiş edəndə deyirdilər ki, - onların baş nazirləri mənə deyirdi ki, - bizdə xəritələr yoxdur. Ancaq sonra etiraf etməli oldular ki, xəritələr var, amma onlar tamamilə yararsız xəritələrdir. Burada, əlbəttə ki, ən böyük manea məhz minalardır. Bizim həmin ərazilərin reabilitasiyasının daha sürətli aparılması üçün infrastruktur layihələrinin və yaşayış binalarının inşasına başlamamışdan əvvəl o ərazilər minalardan təmizlənir" – deyən Azərbaycan Prezidenti təəssüflə onu da bildirib ki, bizim kifayət qədər resursumuz, təcrübəli heyətimiz yoxdur: "Beynəlxalq təşkilatlar və şirkətlər bizə elə qiymətlər təklif edirlər ki, hər bir kvadratmetrə təklif edilən qiymət 5-10 dəfə artıqdır. Çünki bizim də özümüzün Minatəmizləmə Agentliyimiz və şirkətlərimiz var. Bu, nə qədər davam edəcək, bunu demək çox çətindir". Bu gün əlbəttə ki, azad edilən ərazilərdə minaların və partlamamış döyüş sursatlarının aşkarlanması və zərərsizləşdirilməsi üzrə tədbirlər davam etdirilir. Təhlükəsiz hərəkət üçün yollar minalardan təmizlənir. Onu da qeyd edək ki, mina partlayışları nəticəsində həyatını itirən insanların sayının artması nəticəsində Ermənistanı minalanmış ərazilərin xəritələrini verməyə məcbur etmək məqsədi ilə Azərbaycan tərəfindən dünya ictimaiyyətinə, beynəlxalq qurumlara və təşkilatlara, o cümlədən BMT-nin Baş Katibliyinə, BMT-nin İnsan Hüquqları Şurasına, Avropa Şurasına və Avropa İttifaqına müraciət ünvanlanıb.

### "QARABAĞDA İSTEHSAL EDİLƏN ELEKTRİK ENERJİSİ AZƏRBAYCANIN DİGƏR BÖLGƏLƏRİNƏ NƏQL OLUNACAQDIR"

Ölkə Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq işlərinin daha da vüsət almasına böyük təkan verir. Azərbaycan Respublikası öz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni mərhələsinə qədəm qoyub. Yaşıl enerji zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı layihələr həllini tapır. İşğaldan azad edilən ərazilərdə yaşıl enerji zonasının yaradılması, rayonların karbonsuz zonaya çevrilməsi ilə bağlı Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Oxçuçayın Zəngilan rayonunun ərazisindən keçən hissəsində hər birinin gücü 10,5 meqavat olmaqla dörd yerdə ümumi gücü 42 meqavat olan "Zəngilan" Su Elektrik stansiyaları silsiləsi layihələndirilərək qısa vaxt ərzində tikilib. İşğaldan azad edilən ərazilərdə ən böyük silsilə su elektrik stansiyası olan Zəngilan silsiləsindən "Cahangirbəyli" SES 2023-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə istismara verilib. "Şayıflı" və "Zəngilan" SES-lər açılışa hazır vəziyyətə gətirilib, "Sarıqışlaq" SES-də isə işlər başa çatdırılıb. Araz çayının sol qolu olan Oxçuçay üzərində inşa edilən SES-ləri su ilə təmin etmək üçün dəniz səviyyəsindən 600 metr yüksəklikdə baş suqəbuledici qurğu tikilib. Hər birinin gücü 10,5 meqavat olmaqla ümumi gücü 21 meqavat olan "Zəngilan" və "Şayıflı" SES-lər üçün maşın zalları tikilib. Yaşıl enerji zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək "Zəngilan" və "Şayıflı" SES-lərdə rəqəmsal qaydada məlumatların axını mərkəzə ötürülməklə yanaşı, məsafədən idarəedilməsi təmin olunub. Hər iki SES-lərdə il ərzində hər birində 30 milyon kilovat-saat olmaqla, ümumilikdə 60 milyon kilovat-saat yaşıl enerji istehsal ediləcək və bununla da 14 milyon kubmetr qaza qənaət edilməklə yanaşı, atmosferə atılan karbon qazının ($CO_2$) həcmi 28 min ton azalacaq. "Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan coğrafi baxımdan da eyni regiondur. Onlar yaşıl enerji zonaları elan edilib. Burada çox böyük potensial var, həm də Günəş elektrik enerjisi baxımından Naxçıvanda 500 meqavat gücündə Günəş Elektrik Stansiyası ilə bağlı böyük planımız var. İkinci Qarabağ müharibəsi bitdikdən sonra biz hidroelektrik enerjisi sahəsinə vəsait yatırmışıq. Bu üç il ərzində 270 meqavat həcmində su elektrik stansiyaları artıq fəaliyyətdədir. Zənnimcə, bu rəqəm 500 meqavata çatdırılacaq. Bu, bizə regionu tam əhatə etməyə kifayət edəcəkdir. Tam inteqrasiya olunmuş elektrik kabeli layihəsi həyata keçirildikdən sonra Qarabağda istehsal edilən elektrik enerjisi Azərbaycanın digər bölgələrinə nəql olunacaqdır", - deyə Prezident bildirib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP Mərkəzi Aparatında müşavirə keçirilib



*İyulun 20-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında Azərbaycan Respublikası Milli Məclisinə 2024-cü il sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkilərlə əlaqədar yerli seçki qərargahları sədrlərinin iştirakı ilə müşavirə keçirilmişdir.*

Müşavirədə partiyanın İdarə Heyətinin 2024-cü il 3 iyul tarixli qərarı ilə təsdiq edilmiş Tədbirlər Planında əks olunan əsas hərəkət və tədbirlərlə əlaqədar ötən müddət ərzində görülmüş işlər ətrafında müzakirələr aparılmış, onların icra vəziyyətinin təhlili əsasında növbəti dövr üçün konkret vəzifələr müəyyən edilmiş, müvafiq tapşırıq və tövsiyələr verilmişdir.





# "Şuşa Qlobal Media Forumu dünya mediası üçün mühüm platforma rolunu oynayır"

***İyulun 22-də Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda keçirilən 2-ci Şuşa Qlobal Media Forumunun yekunları ilə bağlı brifinq keçirib.***




AZƏRTAC xəbər verir ki, brifinqdə Əhməd İsmayılov Prezident İlham Əliyevin tədbir iştirakçıları ilə görüşünün Foruma göstərilən böyük diqqətin əyani təsdiqi olduğunu bildirib, dövlətimizin başçısına media ictimaiyyəti adından təşəkkür edib.

Forumun artıq ənənəyə çevrildiyini və hər il dünyanın müxtəlif ölkələrindən gələn çoxsaylı qonaqlara ev sahibliyi etdiyini vurğulayan icraçı direktor builki müzakirə mövzularının əhəmiyyətinə də diqqət çəkib. O, müasir informasiya mühitində dezinformasiyanın sürətlə yayıldığını və Şuşa Qlobal Media Forumu çərçivəsində çağdaş dünyada dezinformasiya barədə əhatəli təsəvvürün formalaşdırılması, həmçinin bu problemin səbəb olduğu genişmiqyaslı mənfi nəticələrin təhlili ətrafında geniş fikir mübadiləsinin aparıldığını, önəmli mesajların verildiyini vurğulayıb.

Əhməd İsmayılov diqqətə çatdırıb ki, 50 ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyinin, 3 beynəlxalq təşkilatın və 82 media qurumunun nümayəndələrinin qatıldıqları Şuşa Qlobal Media Forumu dünya mediası üçün mühüm platforma rolunu oynayır və Forum vasitəsilə Şuşadan dünyaya növbəti dəfə önəmli mesajlar verildi.

# "Arab News": "Prezident İlham Əliyev müstəmləkə altında olan xalqlara dəstəyini ifadə edib"

Səudiyyə Ərəbistanının ingilis dilində nəşr olunan "Arab News" nəşri oxucularına Azərbaycan Prezidenti İlham Əliyevin iyulun 20-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun açılış mərasimində çıxışı zamanı Fransanın müstəmləkəçi siyasəti haqqında səsləndirdiyi fikirləri təqdim edib. Məqalədə Azərbaycan və Fransa münasibətləri təhlil olunub. Qeyd edilib ki, Azərbaycan Prezidenti İlham Əliyev çıxışında Qoşulmama Hərəkatının bir çox üzvünün keçmişdə müstəmləkəçiliyin qurbanı olduğunu bildirib. O əlavə edib ki, milyonlarla insan bu siyasətdən əziyyət çəkib və bəzi xalqlar indi də bu zülmün altındadır.







Məqalədə diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev Azərbaycanın bu xalqlara keçmişin iyrənc qalığından azad olmaları üçün kömək etmək istədiyini deyib. Dövlət başçısının sözlərinə görə, bu ölkələr Fransadan minlərlə kilometr uzaqda yerləşir, onları assimilyasiya etməyə çalışırlar, təhqir edirlər. Yeni Kaledoniyada son hadisələr zamanı yeddi insan həlak olub. Bu, Fransanın və onun prezidentinin əməli nəticəsində baş verib. "Biz kolonializmdən əziyyət çəkən bütün xalqları dəstəkləməyə davam edəcəyik, əlimizdən gələni edəcəyik", -deyə Azərbaycanın lideri vurğulayıb.

"Arab News" diqqətə çatdırıb ki, bu həftənin əvvəlində Bakıda Yeni Kaledoniya və Fransanın digər ərazilərindən, o cümlədən Korsika, Karib dənizi və Sakit okean adalarından müstəqillik tərəfdarı olan qrupların iştirak etdiyi konqres keçirilib. Tədbir iştirakçıları Fransa hakimiyyətini kəskin tənqid edib və Azərbaycan nümayəndə heyəti Yeni Kaledoniyaya səfərə dəvət olunub.

Məqalənin sonunda qeyd edilib: "Azərbaycan hakimiyyəti Fransanı otuz illik Qarabağ münaqişəsinə son qoymaq üçün sülh sazişinə nail olmaq səylərində destruktiv mövqe tutmaqda və İrəvan hakimiyyəti ilə müdafiə müqavilələri imzalamaqla Ermənistanın xeyrinə qərəzli olmaqda ittiham edir".

Bundan başqa, Gürcüstan mətbuatı da Prezident İlham Əliyevin "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun açılış mərasimindəki çıxışına geniş yer ayırıb. Belə ki, saqinform.ge, newsday.ge, 24news.ge, "interpress.ge" informasiya portalları, "1tv.ge" televiziya kanalı Azərbaycan Prezidentinin dünyanın müxtəlif ölkələrindən gəlmiş jurnalistlərin suallarını cavablandırarkən söylədiyi fikirlərə geniş yer veriblər.

Əsasən AZƏRTAC-a istinadla yayılan xəbərlərdə dövlətimizin başçısının xüsusilə Cənubi Qafqaz regionunun inkişafı, sülh prosesi, Azərbaycanla bağlı həqiqətlərin düzgün, qərəzsiz işıqlandırılmasının vacibliyi barədə fikirləri əksini tapıb.

1tv.ge ictimai televiziyasının yaydığı məlumatda Azərbaycan qazının Avropaya nəqlindən söz açılıb. Məlumatda deyilir ki, Azərbaycanın məqsədi Azərbaycan qazının Avropaya nəqlini ikiqat artırmaqdır. Mövcud nəqliyyat şəbəkəsi vasitəsilə resursların Avropaya çatdırılması planlaşdırılır.

Dövlətimizin başçısının nitqindən gətirilən sitatda deyilir: "2021-ci ildə biz Avropaya bir milyard kubmetrdən çox qaz nəql etmişik. Bu il biz təkcə Avropaya 13 milyard kubmetr nəql edəcəyik. 2027-ci ilin sonuna kimi biz Avropaya ixracı 16 milyard kubmetrə çatdırmalıyıq. Bu resursların mövcud nəqliyyat şəbəkəsi – Cənub Qaz Dəhlizi, eləcə də interkonnektorlar vasitəsilə Avropaya çatdırılması planlaşdırılır".

Saqinform.ge portalında dərc olunan məlumatlarda Azərbaycan Prezidentinin Ermənistan ilə sülh müqaviləsi, Azərbaycan qazının Avropaya nəqli, eləcə də Cənubi Qafqazla bağlı fikirlərindən xəbərlər yayıb.

Sülh müqaviləsi ilə bağlı məlumatda deyilir ki, sülh müqaviləsinin mətninin 80-90 faizi artıq razılaşdırılıb. Ermənistan ondan (Qarabağla bağlı - red.) müddəa və terminologiyanı çıxarmağa məcbur oldu ki, bu da normallaşma prosesinin daha da inkişafına yol açdı. Azərbaycan qazının Avropaya nəqli ilə bağlı materialda isə Cənub Qaz Dəhlizinin genişləndirilməklə qaz nəqlinin 16 milyard kubmetrdən 32 milyard kubmetrə artırılması və s. məsələlər əksini tapıb.

24news.ge informasiya portalı Prezident İlham Əliyevin Britaniyada Ermənistanın baş naziri Nikol Paşinyanla planlaşdırılan, lakin erməni baş nazirin imtina etdiyi görüş barədə fikirlərinə yer ayırıb.

Məlumatda deyilir: "Sülh sazişinin mətni üzərində danışıqların davam etdiyini, lakin bu gün bununla bağlı daha az nikbin olduğunu vurğulayan Prezident İlham Əliyev baş nazir Paşinyanın onunla Britaniyada görüşməkdən imtina etdiyini xatırladıb. O deyib ki, bu görüş Britaniya hökumətinin təşəbbüsü, təklifi idi: "Lakin Ermənistan tərəfi bu təklifi rədd etdi. Biz buna çox təəccübləndik".

Newsday.ge portalı isə Azərbaycanda və regionda baş verən hadisələr obyektiv şəkildə işıqlandırılması, Cənubi Qafqaz regionunda tarixi transformasiya və baş verən tarixi-geosiyasi dəyişikliklər barədə məlumatlar yayıb.

# Bayden namizədliyini geri çəkdi – meydanda Kamala Harrisdir

**_Hazırkı ABŞ prezidenti və Demokratlar Partiyasının prezidentliyə namizədi olaraq tanınan Co Bayden sosial media hesabından məktub yayımlayaraq namizədliyini geri götürdüyünü və prezidentliyə namizəd olaraq vitse-prezident Kamala Harrisi dəstəklədiyini açıqlayıb. Bayden seçkidən 4 ay əvvəl verdiyi qərarın "partiyasının və ölkəsinin rifahı naminə" olduğunu bildirib._**



Qeyd edək ki, Bayden iyunun sonunda respublikaçı rəqibi Donald Trampla teledebatda zəif çıxışından sonra Demokratlar tərəfindən geri çəkilməsi üçün güclü təzyiqə məruz qalmışdı. Nəhayət o, məktubunda prezident vəzifəsini tutmağın həyatının ən böyük şərəfi olduğunu ifadə edərək, "Niyyətim yenidən seçilmək olsa da, prezidentlik müddətimin sonuna qədər, yalnız prezidentlik vəzifələrimlə məşğul olmağımın, partiyamın və ölkəmin xeyrinə olacağını düşünürəm", - deyib.

Onu da qeyd edək ki, mükəmməl tərəfdaş adlandırdığı Kamala Harrisə uğurlar diləyən Baydenin seçimlərdən çəkiləcəyi gözlənilən deyildi. Belə ki, Bayden keçən həftə Covid diaqnozu qoyulduqdan sonra vətəni Delaver ştatında dincələrkən "növbəti həftə seçki kampaniyasına qayıtmağı səbirsizliklə gözlədiyini" söyləmişdi. Hətta Co Bayden daha əvvəl onu bu yarışdan yalnız "Tanrının" geri çəkə biləcəyini bildirmişdi. Daha sonrakı açıqlamalarında isə səhhətində problem olarsa, geri çəkilmək barədə düşünə biləcəyini vurğulamışdı. ABŞ prezidenti məsələ ilə bağlı verdiyi açıqlamada belə deyib: "Bu gün mən partiyamızın namizədi kimi Kamalaya tam dəstəyimi bildirmək istəyirəm. Demokratların, bir araya gəlib Trampı məğlub etməyinin vaxtıdır. Gəlin bunu edək". Kamala Harris isə cavabında "Donald Trampı və ekstremist lahiyələrini məğlub etmək üçün əlimdən gələni edəcəyəm", - deyib və "Seçkilərə 107 gün var. Biz birlikdə mübarizə aparıb, birlikdə qalib gələcəyik" - əlavə edib. Baydenin keçmiş rəqibi Donald Tramp onun prezidentlik yarışından geri çəkilmək qərarına sosial media platformasından cavab verib: "Saxtakar Co Bayden prezidentliyə namizəd olmaq üçün uyğun deyildi və o, şübhəsiz ki, prezident olmağa yaraşmırdı, heç vaxt da olmayıb".

Prezident Co Bayden ilkin seçkilərdə Demokratlar Partiyasından 3896 əyalət nümayəndəsinin dəstəyini almışdı. Bu rəqəm prezidentliyə namizədliyini təmin etmək üçün lazım olandan xeyli çoxdur. Baydenin dəstəyinə baxmayaraq nümayəndələrin Harrisə dəstək verib-verməyəcəyi isə sual altındadır. Belə ki, ABŞ seçki sisteminə görə yetərincə nümayəndənin dəstəyini qazana bilməyən şəxs prezidentliyə namizədliyini təmin edə bilməz. Buna görə də demokratlar tərəfindən kimin namizəd olaraq seçiləcəyi nümayəndələrdən asılı olacaq.

Demokrat Partiyasının qurultayının avqustun 19-da başlaması planlaşdırılır. Partiya üzvləri vahid namizəd ətrafında birləşməsələr, 1968-ci ildən sonra ilk açıq qurultay keçirilə bilər. Açıq qurultay vəziyyətində prezidentliyə namizədlərin səsvermə bülletenində iştirak etmək üçün ən azı 300 nümayəndənin dəstəyinə ehtiyacı var. Görünən odur ki, Baydenin Kamalanı dəstəkləməsi onun namizədliyini təsdiqləməsi üçün yetərli deyil. Digər tərəfdən, demokratlar da öz içlərində fikir ayrılıqları yaşayırlar. Nəticə olaraq bütün bunlar Donald Tramp üçün sərfəli vəziyyət təşkil edir.

***Zərdüşt Quluzadə***

## Paolo von Şirak: "Şuşa forumu son dərəcə vacib zamanda keçirilən tədbirdir"

"Dezinformasiya xəstəlik kimidir. Düzünü desəm, dərmanı olmayan bir epidemiyaya bənzəyir. Təəssüf ki, bu gün texnologiyanın inkişafı belə dezinformasiyanın qarşısını ala bilmir. Buna görə də bu forum son dərəcə vacib zamanda keçirilən bir tədbirdir." Bunu jurnalistlərə müsahibəsində 2-ci Şuşa Qlobal Media Forumunda iştirak edən ABŞ Qlobal Siyasət İnstitutunun prezidenti Paolo von Şirak söyləyib.




Süni zəka texnologiyalarının siyasətçi və ya dövlət başçısına aid saxta müsahibə yaratmaq bacarığını diqqətə çatdıran Paolo von Şirak bu cür xəbərlərin investisiya, böyük studiyalar olmadan geniş şəkildə yayıldığını deyib: "Bunu üçün də tənzimləmə olmalıdır. Hökumətlər qanunlarla müdaxilə etməlidir. Beynəlxalq konvensiyalar olmalıdır və bu işdə biz hamımız iştirak etməliyik".

Süni intellektin bir neçə dəqiqə ərzində minlərlə saxta xəbər saytı və sosial media hesabları yarada bilməsini diqqətə çatdıran qonaq indiki vaxtda bununla necə mübarizə aparmağın, həll yollarını axtarmağının vacibliyini qeyd edib: "Bu, böyük bir problemdir. Biz istehlakçılar, həmçinin media nümayəndəsi olan jurnalistlər, sosial media istifadəçiləri, prodüserlər və menecerlər və bir çox insan bu yeni reallıqla qarşılaşırıq. Süni intellekt məlumatı tənzimləmək, bir çox sənaye və iqtisadi sektorların pula qənaət etməsinə imkan verən daha dəqiq məzmuna və məlumatlara sahib olmaqla yanaşı, eyni zamanda, bir neçə saniyə ərzində açıq yalan xəbərlər yaradır".

Dezinformasiyanın xərçəng və ya bir növ COVID pandemiyası adlandıran ABŞ Qlobal Siyasət İnstitutunun prezidenti deyib: "COVID zamanı bir müddət bir peyvənd hazırlandı, çox böyük bir çaxnaşma yaşandı, insanlar ölürdü və bu barədə nə edəcəyimizi bilmirdik. Çünki tibb elmi tamamilə bu virusun qarşısında aciz idi. Demək istədiyim odur ki, pis niyyətlə istifadə edilən süni intellektə bərabər bir peyvənd tapa biləcəyimizə dair heç bir fikrim yoxdur".

## XİN: "Aİ-nin Ermənistana hərbi yardım göndərməsi qərarı olduqca yanlış və təhlükəli addımdır"

Fransa tərəfindən Ermənistanın "Bastion" çoxməqsədli zirehli avtomobilləri və "Sezar" özüyeriyən artilleriya qurğuları ilə təchiz edilməsi istiqamətdə atılan addımlardan sonra Avropa İttifaqının (Aİ) Ermənistana hərbi yardım göndərməsi qərarı olduqca yanlış və təhlükəli addımdır, regionda gərginliyin artmasına xidmət edir. Avropa İttifaqı tərəfindən bu kimi fəaliyyətlər açıq şəkildə birtərəfli və qərəzli xarakter daşıyır, bölgədə "bölücü xətlər" yaratmaq siyasətinin təzahürüdür.



AZƏRTAC xəbər verir ki, bu fikirləri Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə medianın sualına cavabında səsləndirib.

Mətbuat katibi qeyd edib: "Ermənistana sözügedən hərbi yardım və belə yardımın gələcəkdə artmasına çağırışlar Azərbaycan Respublikasının ərazilərinin bir hissəsini 30 ilə yaxın dövrdə işğal altında saxlayan, hazırda arazi bütövlüyümüzə qarşı iddialardan əl çəkməyən Ermənistanın hərbi potensialını gücləndirməyə və bölgədə destruktiv fəaliyyətinə xidmət edəcək. Avropa İttifaqı Şurası tərəfindən verilmiş bu qərara qətiyyətlə etiraz edir, göstəriləcək yardım barədə şəffaf şəkildə məlumatın açıqlanacağını gözləyirik. Aİ bölgədə silahlanmaya və hərbiləşmə siyasətinə töhfə verən bu kimi addımlara son qoymalı, bölgədə sülh və əməkdaşlığın alternativinin olmadığını anlamalıdır. Əks təqdirdə, Ermənistanın sabitliyi pozan hər hansı mümkün təxribatına görə Avropa İttifaqı da məsuliyyəti bölüşəcək".

## "Hazırkı dövrdə evliliklər çox adiləşib"

***"Təəssüf ki, son zamanlarda uzunmüddətli evliliklər belə bitməyə başlayır". Bu sözləri SİA-ya danışan psixoloq Nabat Mirzəyeva deyib. O bildirib ki, evliliklərin tez bitməsinin əsas səbəbi müasir dövrdür: "Hazırkı dövrdə evliliklər çox adiləşib. Adiləşməyin ən əsas səbəbləri kimi sosial şəbəkələr və həddindən artıq aktiv həyat tərzinin təbliğ olunmasını vurğulamaq lazımdır. Yəni sosial şəbəkələrdə bizə göstərilən "xoşbəxtlik anlayışı" həyatımızı və evliliyimizi sorğulamağımıza səbəb olur. Kimsə xoşbəxt olduğu halda, biz nə üçün xoşbəxt ola bilmədiyimizi düşünməyə başlayırıq".***




Lakin psixoloq qeyd edib ki, xanımlar bu barədə həyat yoldaşları ilə müzakirə aparmırlar: "Əfsuslar olsun ki, bu barədə həyat yoldaşımızla danışmadan birbaşa olaraq aqressiyamızı ona yönləndiririk. Bu, təəssüfki xanımlarda daha çox olur. Nəticədə, ailədə söz-söhbətlər başlayır. Kiçik söz-söhbətdən isə böyük gərginlik yaranır. Bu isə bir müddət sonra ailənin dağılması ilə nəticələnir".

Nabat Mirzəyevanın sözlərinə görə, indiki dövrdə xanımlar ailə problemlərinə qarşı təkbaşına mübarizə aparmaq istəmirlər: "Əvvəlki dövrlərdə Azərbaycan xanımları hər şeyə səbr edirdilər. İndiki dövrdə isə qadınlarımız təktərəfli mübarizə aparmaq istəmirlər. Çünki tək mücadilədən artıq yorulurlar. Ona görə də fikirlərini asan və rahat şəkildə bildirməyə çalışırlar. Bundan başqa, indiki zamanda cütlüklərin çoxu ayrı ayrılıqda çox zaman keçirtməyə çalışır, bərabər zaman keçirtməkdən uzaq olduqları üçün yad insanlara çevrilirlər. Xanımlar sosial şəbəkələrdə gördükləri "xoşbəxtlik anlayışını" öz yoldaşlarına təklif edəndə müsbət cavab ala bilmədikləri üçün vəziyyət daha da gərginləşir və boşanmağa doğru gedir."

***Ləman Əlizadə***




# Həqiqətin və qətiyyətin gücü ilə VERİLƏN DƏRS!

***Həqiqətən də II Şuşa Qlobal Media Forumu yaddaqalan oldu, çünki qaldırılan məsələlərin olduqca əhəmiyyətli və vacib olduğu zərrə qədər də şübhə doğura bilməz. Ələlxüsus da ölkə rəhbərimiz, dövlətimizin başçısı tərəfindən ortaya qoyulan reallıqlar, söylədikləri həqiqətlər kimlərinsə uydurduqları yalanların ifşası baxımından daha çox diqqəti cəlb etdi. Bütün dünya ictimaiyyəti Azərbaycan Prezidentinin qətiyyətinin bir daha şahidi oldu və cənab İlham Əliyevin məhz həqiqətin və qətiyyətin gücü ilə verdiyi dərs, sözsüz ki, bundan sonra da qətiyyən unudulan deyil.***

### Ölkə rəhbərimiz bir çoxlarına unudulmaz bir tarixi dərs verdi

Əslində, dünya ictimaiyyəti dəfələrlə yalan xəbərlərin, həqiqətə uyğun olmayan informasiyaların yayıldığının şahidi olub. Bunu biz də müşahidə etmişik. Hətta dünya miqyasında məşhur olan siyasi liderlər belə müşahidə ediblər və etiraflarını da bilirik. Amerika Birləşmiş Ştatlarının, Fransanın və bir çox böyük ölkələrin mətbuat orqanlarının məhz həmin ölkələrin hakimiyyətinin tapşırığı ilə hansı yalanlara, dezinformasiyalara əl atdıqları da sirr deyil axı. Onların təxribat xarakterli məlumatlarına haqq qazandırmaq mümkünsüzdür, baxmayaraq ki, Fransa lideri Emmanuel Makron kimiləri bunu özlərinə rəva bilirlər. Halbuki bunu özlərinə rəva bilmələri həyasızlıq əlaməti olaraq qəbul olunmaqdadır və Şuşadan onlara verilən dərsi çox güman ki, almış olarlar. Elə Amerika mediasında da yalanlara, dezinformasiyalara və manipulyasiyalara necə əl atıldığını da ört-basdır etmək cəhdi heç də uğurlu sayılmır. Çünki həmin ölkənin liderləri belə bunu etiraf etməkdən çəkinmədilər. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev məhz II Şuşa Qlobal Media Forumunda öz qətiyyəti ilə həqiqətləri bir-bir sadaladı və bununla da yalana üz tutanlara, yalana sığınanlara, ümumiyyətlə, bir çoxlarına tutarlı, unudulmaz bir tarixi dərs verdi. Azərbaycan həqiqətləri, əsl reallıqlar məhz ölkə rəhbərimiz tərəfindən diqqətə çatdırıldı və erməni yalanları bir daha ifşa edildi. Hətta ermənilərin təsiri ilə dünyanın bir çox ölkələrində yayılan yalan informasiyaların da uğursuz olduğu ortaya qoyuldu və əsl həqiqətlərin nədən ibarət olduğu bir daha diqqətə çatdırılmaqla, onların dezinformasiyaları yenə də, növbəti dəfə də darmadağın edildi.

### Absurd vəziyyət barədə xatırlatma tamamilə yerinə düşmüş oldu

Azərbaycan Prezidenti məhz Şuşada diqqətə çatdırdı və xatırlatdı ki, hətta ABŞ-ın keçmiş prezidenti, hazırda isə gözlənilən prezident seçkilərinə qatılacağını və qələbə qazanacağını iddia edən Donald Trampın da məhz ona ünvanlanan yalan və açıq-aydın dezinformasiya axını ilə üzləşdiyini etiraf edib. Bu o deməkdir ki, həmin ölkədə, ABŞ-da yalanın az qala ayaq tutub yeridiyini məhz siyasi liderin etiraf etdiyini ölkə rəhbərimiz qətiyyətlə xatırlatmaqla reallıqları ortaya qoyub. "Tramp Washington Post və New York Times qəzetlərini saxta xəbər mənbələri adlandırıb. Mən onunla tamamilə razıyam - təkcə bununla deyil, digər bəyanatlarla da", deyə Azərbaycan Prezidentinin vurğulaması çox qətiyyətli addımdır və bütün dünya ictimaiyyəti bunu yaxşıca müşahidə etmiş oldu.

Dövlətimizin başçısının qətiyyətinin bütün dünya ictimaiyyəti dəfələrlə şahidi olub və elə bu dəfə də şahidi oldu. Şahidi oldu ki, Birləşmiş Ştatların 1992-ci ildə ayrı-seçkilik və ədalətsizlik kimi yadda qalan 907-ci düzəliş barədə yanlış addımı haqlı olaraq, Azərbaycan Prezidenti tərəfindən qınanıldı. Xüsusən də bu addımın məhz erməni işğalçılarının Şuşanı və Laçını tutduğu, Xocalıda dinc azərbaycanlı əhaliyə qarşı soyqırım törətdiyi, on minlərlə azərbaycanlının məcburi köçkünə çevirdiyi zaman atıldığını dövlət başçımızın qeyd etməsi qətiyyən nəzərdən qaça bilməz. "Biz təcavüzün hədəfi idik, lakin ABŞ-dakı erməni lobbisi və ermənipərəst Konqres üzvləri ucbatından sanksiyalara məruz qaldıq. Yəni, bu, tamamilə absurd vəziyyətdir ki, humanitar böhran, bir milyon insanın deportasiyası, işğal olunmuş ərazilərin tamamilə dağıdılması ilə ölkə üz-üzədir və eyni zamanda sanksiyalara da məruz qalır", deyə dövlətimizin başçısı xatırladıb və bu tamamilə yerinə düşmüş olub.

### Şahidi oluruq və görürük ki, dövlətimizin başçısı tamamilə haqlıdır

Bəli, bir zamanlar, daha dəqiq desək ötən əsrin sonlarında müstəqilliyimizi təzəcə bərpa etdiyimiz üçün beynəlxalq mediaya çıxışımız yox idi və bunu da Prezidentimiz öz nitqi zamanı tam məqamında diqqətə çatdırıb. Xatırladıb ki, ABŞ, Rusiya və Fransada - ATƏT-in Minsk Qrupuna daxil olan və əsas missiyasını yerinə yetirə bilməyən üç ölkədə nüfuzlu dünya erməni birliyi faktoru da var idi və bu, Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həllinə mane olurdu. Hətta ölkəmizin başçısı onu da vurğulayıb ki, ermənilərin Azərbaycana qarşı cinayətləri ilə bağlı bütün həqiqətlər 1990-cı illərdə Rusiya media məkanında belə susdurulub. "Ermənistan ərazisindən – Qafan rayonundan və digərlərindən azərbaycanlıların vəhşicəsinə deportasiyası tamamilə susdurulan zaman erməni yalanlarını dəstəkləmək üçün tamamilə birtərəfli qərəzli münasibət var idi", deyə dövlətimizin başçısı həqiqətlər barədə susqunluq haqda da qətiyyətlə bəyan edib.

Ölkəmizin rəhbərinin dediklərinin həqiqət olduğunun hər an, hər zaman şahidi oluruq və görürük ki, bəli, açıq-aşkar şəkildə yalançı, təxribat xarakterli, anti-Azərbaycan nəşrləri Amerika, Fransa, Rusiya mətbuatında hələ də öz çirkin fəaliyyətlərini, yalana söykənən missiyalarını davam etdirirlər və dövlətizimin başçısı tamamilə haqlıdır. Biz bunu mütəmadi olaraq müşahidə edirik. Müşahidə edirik ki, erməni lobbisi nəinki Ermənistan-Azərbaycan münaqişəsinin səbəb və nəticələri ilə bağlı yalan məlumatların və həqiqətə uyğun olmayan dezinformasiyaların yayılmasında fəaliyyətini dayandırmayıb, əksinə, üstəlik, dəfələrlə "fəal" olmağa da can atır. Məhz ölkə rəhbərimizin Şuşada söylədikləri həmin fəaliyyəti davam etdirən, yalanların, dezinformasiyaların yayılmasına can atanlar, cəhd edənlər üçün möhtəşəm bir tarixi dərs oldu və çətin ki, bu dərsi unudalar.

### Müharibədə qələbə qazanıldığı kimi, yalanlar da, dezinformasiyalar da darmadağın edildi

Dəfələrlə şahidi olmuşuq ki, Fransa dövləti, həmin ölkənin hakimiyyəti, ələlxüsus da lideri Emmanuel Makron ölkəmizə qarşı hədsiz dərəcədə ədalətsiz yanaşıb. Nəinki ədalətsiz yanaşıb, tamamilə düşmən mövqe sərgiləyib, özü də nümayişkəranə şəkildə bunu edib. Təbii ki, həmin bu Avropa ölkəsinin Cənubi Qafqaz regionunda möhkəmlənmək istəyində olması və bu istək fonunda da Ermənistana "əl tutması", eləcə də hər mənada dəstəkləməsi təkzib edilə bilməz. Ələlxüsus da 44 günlük müharibə dönəmində Azərbaycan haqqında yalanlar yayaraq ordumuzun zəfər yürüşünü dayandırmağa çalışmaq niyyəti də unudulan deyil. Müharibə başa çatdıqdan, təbii olaraq, Azərbaycan mükəmməl bir qələbəyə ən qısa zamanda imza atdıqdan və Ermənistan da öz növbəsində kapitulyasiyanı, təslimçilik sənədini imzaladıqdan sonra da rəsmi Paris öz çirkin niyyətindən, ikiüzlülüyündən, ədalətsizliyindən, ölkəmizə qarşı düşmənçilik yolundan əl çəkmədi və indi də əl çəkən kimi görünmür. Bu baxımdan ölkə rəhbərimizin məhz bu məqamda xatırlatmaları, həqiqətləri bir daha diqqətə çatdırması tam yerinə düşməklə yanaşı, həm də zamanında verilən tarixi bir dərs olaraq yaddaşlara həkk olundu.

Doğrudur, "Fiqaro" və ya "Le Monde" qəzetini alətə çevirən Fransa hakimiyyəti, ələlxüsus da prezident Emmanuel Makron həmin məşrlər vasitəsi ilə çox "canfəşanlıq" etdi ki, ölkəmizə qarşı həyasızcasına qara yaxsın. Amma bununla belə Azərbaycan öz rəhbərinin, Ali Baş Komandanının başçılığı ilə müharibədə qələbə qazandığı kimi, elə yalanları da, dezinformasiyaları da darmadağın etdi. "Biz bu medianın Yelisey sarayından aldığı mesajları bilirik, amma fərq etməz", deyə Azərbaycan Prezidenti İlham Əliyevin vurğulaması heç şübhəsiz ki, Makronun özünə belə tutarlı bir dərs sayılır. Çünki Fransa lideri artıq yaxşı başa düşür ki, onun ədalətsizlikləri də, ikiüzlülükləri də, haqsızcasına işğalçını və təcavüzkarı dəstəkləməsi də, niyyəti də, məramı da yaxşıca bəllidir və manipulyasiyaları heç gizli deyil. Başa düşür ki, simasızlığı da hamıya bəllidir və bununla bağlı qətiyyətlə bəyan edilir də, həqiqətin nədən ibarət olduğu da vurğulanır.

*İnam Hacıyev*

# “Azərbaycanın artan nüfuzu Fransanı ciddi narahat edir”

***“Fransa hakimiyyəti Azərbaycana qarşı qərəzli, düşmən mövqeyini uzun illərdir ki, davam etdirir. Bu mövqe son illərdə daha da kəskinləşib və Emmanuel Makron hakimiyyətə gəldikdən sonra Azərbaycana qarşı münasibətlər demək olar ki, kökündən dəyişdirilib və dövlətimizə, xalqımıza qarşı böhtan, şantaj kampaniyası davam etdirilməkdədir.” Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.***



Komitə sədri xatırlatma edib və qeyd edib ki, Fransa ATƏT-in Minsk Qrupunun bir üzvü kimi 30 ildə Azərbaycan torpaqları işğal altında olduğu müddətdə heç bir vaxt Azərbaycanın haqlı mövqeyini ortaya qomayıb, neytral, yanlış mövqe tutubdur və daimi olaraq, Ermənistanı, təcavüzkarı müdafiə edibdir.

“Müharibədə tarixi qələbəmiz, anti-terror tədbirləri və Azərbaycanın artan nüfuzu, Cənubi Qafqazda lider dövlətə çevrilməsi bu gün Fransanı ciddi narahat etməkdədir və Emmanuel Makron demək olar ki, özünün düşmənçilik siyasətini hər an göstərir və ən mötəbər tədbirlərdə Azərbaycana qarşı yanlış fikirlər söyləməsi dövlətimizin imicinə zərbə vurmaq məqsədi daşıyır. Bu çirkin məqsəd Avropa Birliyinin 4-cü Sammitində də özünü aydın göstəribdir. Emmanuel Makron həmin tədbirdə Ermənistanı sülhsevər bir dövlət kimi qələmə verib və Ermənistana qarşı guya haqsızlığın olduğunu bildirib və Azərbaycana qarşı yenə də düşmən mövqeyindən çıxış edibdir. O, Ermənistanın hərbləşdirilməsi siyasətinə haqq qazandırmaqla, əslində, sülhün bərqərar edilməsinə deyil, Cənubi Qafqazda müharibənin yenidən alovlanmasına bir zəmin yaradır. Əlbəttə ki, bu, beynəlxalq normalara tamamilə ziddir, Azərbaycanın müstəqilliyinə, suverenliyinə bir təhdiddir, faşist dövləti olan Ermənistanı müharibəyə qızışdırmaqdır. Ancaq Emmanuel Makron kimi siyasətçilər nə qədər səy göstərsələr də Azərbaycana qarşı heç bir təsir mexanizmini həyata keçirə bilməzlər. Çünki Azərbaycan Prezidenti cənab İlham Əliyev dünyada balanslaşdırılmış bir siyasət aparır, sülhün, əmin-amanlığın, tərəfdaşlığın tərəfdarı kimi öz fikirlərini ən mötəbər tribunalardan deyir və o Sammitdə də, dünyanın bir çox ölkələrinin rəhbərləri ilə görüşlərində öz fikirlərini, bəşəri ideyalarını ortaya qoyur.

Sözsüz ki, hər bir fəaliyyət əməldə, işdə, nəticələrdə özünü göstərir və bu gün Azərbaycanın haqq yolunda, ədalət yolunda atdığı addımlar bəşəriyyət tərəfindən, sülhsevər dövlətlər tərəfindən yüksək qiymətləndirilir. O, Avropa Birliyinin Sammitində də özünü göstərdi və burada cənab Prezident dünyanın lider dövlətləri ilə görüşündə, dünyanın ən nüfuzlu siyasətçisi, dövlət rəhbəri kimi qəbul olundu və onun fikirləri qiymətləndirildi. Bu gün Fransanın tutduğu mövqe, onun rəhbərinin fikirləri bəşəriyyət üçün bir təhdiddir, insanlığa xəyanətdir və sözsüz ki, bu da bu gün Fransada özünün ağrılı nəticələrini verməkdədir. Artıq Makron Fransada, eləcə də dünyada qəbul olunmayan bir siyasətçi, cılız bir rəhbər kimi təqdim olunur və onun fəaliyyətinin sonu yetişibdir. Ancaq demək istəyirəm ki, Fransanın tutduğu bu mövqe sözsüz ki, Fransa xalqının fikri deyil və bu heç də hörmət, ehtiram gətirmir. Azərbaycan qüdrətli dövlətdir və onun yürütdüyü siyasət bu gün dünyada qəbul olunursa, Azərbaycana qarşı göstərilən hər hansı bir cəhd sözsüz ki, qətiyyətlə aradan qaldırılacaq və düşmənin arzuları gözündə qalacaqdır”, deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***




# Aliment alan şəxs sosial yardım ala bilər?

**“Məhkəmə qətnaməsinə əsasən, aliment alan şəxslərin təbii ki, sosial müavinət almaq hüquqları var”. Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib. Onun sözlərinə görə, Azərbaycan Respublikasının vətəndaşları “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikası qanunu ilə müəyyən olunmuş şərtlərlə və qaydada aylıq və birdəfəlik müavinət almaq hüququna malikdirlər: “Bu Qanunla aşağıdakı müavinətlər təyin edilə bilər:**




- aylıq müavinətlər;
- dövlət qulluqçularına ömürlük müavinət;
- yaşa görə müavinət;
- əlilliyə görə müavinət;
- ailə başçısını itirməyə görə müavinət;
- müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş bəzi kateqoriya şəxslərə kommunal, nəqliyyat və digər xidmətlərə görə müavinət;
- 3 yaşınadək uşağa qulluğa görə müavinət; müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına müavinət;
- valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət;
- 1 yaşınadək uşağı olan aztəminatlı ailələrə müavinət; vəfat etmiş Azərbaycan Respublikasının keçmiş Prezidentinin arvadına (ərinə) və ya öhdəsində olan uşağına “Azərbaycan Respublikasının keçmiş Prezidentinin və onun ailə üzvlərinin təminatı haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa əsasən ödənilən müavinət;
- beşdən çox uşağı olan qadınlara müavinət;
- övladlığa götürülən uşağa, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağa görə müavinət;
- himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə müavinət.

Bu müavinətlərdən yalnız biri təyin edilə bilər. Şəxsin sosial müavinət almaq hüququnun olması hələ ona belə müavinətin təyin olunacağı anlamına gəlmir. Bunun üçün vətəndaş zəruri sənədlərlə müvafiq dövlət orqanlarına ( Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu, “DOST” mərkəzləri) müraciət etməli, əgər onun yuxarıda sadalanan hər hansı bir müavinəti almaq üçün hüquqi əsas varsa, bu zaman ona sosial müavinət təyin edilə bilər”.

***Ayşən Vəli***

# Gürcü telekanalının əməkdaşı: “Qlobal əhəmiyyətli tədbirlərə ev sahibliyi etmək Azərbaycanın yüksək inkişafının göstəricisidir”

Azərbaycan qlobal əhəmiyyət daşıyan bir çox tədbirlərə ev sahibliyi edir. Bu cür mühüm əhəmiyyətli qlobal tədbirlərə ev sahibliyi etmək, onları yüksək səviyyədə keçirmək, əlbəttə, ilk növbədə, ölkənin yüksək inkişafını göstərir. Bu sözləri AZƏRTAC-a açıqlamasında “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun iştirakçısı, Gürcüstanın İctimai kanalının (1tv.ge) əməkdaşı Ramilia Əliyeva söyləyib.




Müasir dünya qarşısında duran ən önəmli çağırışlardan birinin yalan məlumatlar və dezinformasiya ilə mübarizə olduğunu vurğulayan R.Əliyeva qeyd edib: “Bu gün heç bir insan dezinformasiyaya məruz qalmaqdan sığortalanmayıb. Hazırda bu mövzu ilə müzakirələr önəmli məsələdir. İkinci Şuşa Qlobal Media Forumunda 50-dən çox ölkənin müxtəlif media nümayəndələrinin bu mövzunu bir arada müzakirə etmələri, təcrübələrini bölüşmələri, əlbəttə, çox mühüm və önəmlidir.

Bu gün qlobal media müstəvisində yalan məlumat və dezinformasiya dedikdə önəmli müzakirə mövzusundan birinin süni intellekt olduğunu söyləyən jurnalist qeyd edib: “Zənnimcə, media mənsublarının süni intellektin müsbət və mənfi tərəflərinin obyektiv şəkildə müzakirə etdikləri ən böyük platforma Şuşa Qlobal Media Forumudur. Bunun davamlı olması müasir media mühiti üçün həyati əhəmiyyətə malikdir. Forum çərçivəsində panel müzakirələri bizə bir daha göstərdi ki, mediada süni intellektdən istifadə çox diqqətlə olmalıdır. Süni intellekt vasitəsilə yalan və dezinformasiya tərkibli xəbərlərin yaradılıb yayılması barədə Prezident İlham Əliyev fikirlərini bildirdi”.

Ramilia Əliyeva, həmçinin qeyd edib ki, dünyada cərəyan edən qlobal siyasi cərəyanlar Cənubi Qafqaza da təsirini göstərir. Prezident İlham Əliyevin regionla bağlı fikirlərini dinlədikcə onun bölgənin inkişafı, iqtisadi rifahı ilə əlaqədar aydın baxışının olduğunu anladıq.

“Prezident İlham Əliyev Cənubi Qafqaz regionu üçün yeni əməkdaşlıq formatının aktual olduğu haqqında da fikirlərini açıqladı. Prezidentin xüsusilə Gürcüstanla bağlı dediklərini diqqətlə dinlədim. Yaşıl enerji layihəsinin bir hissəsi olmaq Gürcüstan üçün də mühüm amildir. Sözsüz ki, Prezident İlham Əliyev dünya səviyyəli siyasi xadimdir və onun bölgə ilə bağlı dedikləri mütləq nəzərə alınmalıdır”, - deyə o əlavə edib.

# İfrat sağçıların puç olan ümidi

**Avropa Parlamentinə seçkilərdə uğurla çıxış edən ultrasağçılar Avropa Parlamentinin özündə də nüfuz uğrunda mübarizəni uduzdular. Orada aparılan danışıqlar nəticəsində Fransada Marin Le Penin "Milli Birlik" Partiyası və Macarıstanda Viktor Orbanın "Fides" partiyasının da daxil olduğu "Avropa naminə vətənpərvərlər" fraksiyası bir dənə də olsun önəmli post ala bilməyib.**

Fraksiyanın nümayəndələri Aİ-nin qanunverici orqanının büdcəsi və reqlamentinin müəyyən olunduğu Avropa Parlamentinin bürosuna daxil olmayıblar, bu isə o deməkdir ki, onlar Avropa İttifaqının siyasətinə praktiki olaraq təsir göstərə bilməyəcəklər. Buna bir misal kimi, "Avropa naminə vətənpərvərlər" fraksiyası Ursula fon der Leyenin cümə axşamı keçirilən yeni müddətə Avropa Komissiyasının sədri kimi təsdiqlənməsinin qarşısını ala bilməyiblər. Avropa Parlamentinin üç aparıcı fraksiyası ifrat sağçılara qarşı birləşib. Onlar Kremllə yaxınlaşmanın potensial tərəfdarlarının Aİ hakimiyyətlərində mühüm qərarlar qəbul etmələrinin qarşısını almaq üçün nəzərdə tutulmuş "kordon sanitar" adlandırdıqları üsulu tətbiq ediblər.



Çərşənbə axşamı, iyulun 16-da yeni Avropa Parlamentinin ilk iclası işə başlayıb. Parlamentdə 84 mandata nəzarət edən "Avropa naminə vətənpərvərlər" üçüncü ən böyük fraksiyaya malikdir. "Almaniya üçün Alternativ" ətrafında qruplaşan və prinsipcə bir çox məsələlərdə Orban və Le Penlə əməkdaşlığa hazır olan "Suveren Millətlər Avropası" fraksiyası ilə birlikdə Avropa Parlamentinin 705 üzvündən yüzdən çox deputata malikdir. Adətən üçüncü ən böyük fraksiya xeyli sayda rəhbər vəzifələr alır. Avropa diplomatiyasının rəhbəri vəzifəsi ən çox ona gedir. Ancaq iki günlük iclasdan sonra məlum olduğu kimi, bu dəfə belə olmadı. "Avropa Naminə Vətənpərvərlər" fraksiyasının və Milli Birliyin rəhbəri Cordan Bardella Avropa Parlamentinin vitse-prezidentləri vəzifələrinə səsvermənin nəticələri açıqlananda məyusluğunu gizlədə bilməyib. O, digər avropalı deputatlar kimi sədrlik üçün müraciət etməyib. Roberta Metsolanın yenidən seçilməsi onun yeganə mümkün rəqibi, Avropa Şurasının hazırkı rəhbəri Şarl Mişelin Avropa Parlamentinə namizəd olmaqdan imtina etməsindən sonra mübahisəsiz bir seçim oldu. Bardella sədr müavinlərindən biri olmağa ümid edirdi. 28 yaşlı iddialı siyasətçi üçün bu, vətəni Fransada əldən verilmiş fürsətin kompensasiyası olardı.

Milli Birlik proqnozların əksinə olaraq, parlament seçkilərində səs çoxluğu əldə etmədiyindən, hələlik o, ölkənin baş naziri olmaq arzusu ilə vidalaşmalı olub. Məlum oldu ki, Bardell də Metsolanın müavini olmayacaq. Vitse-prezidentlərin 14 postundan 5-i Sosialistlərin və Demokratların Mütərəqqi Alyansının ikinci böyük fraksiyasına, 3-ü Avropa Xalq Partiyasına (Avropa Parlamentindəki ən böyük fraksiya fon der Leyen də ona aiddir) düşüb. Qalanları isə sayca "Avropa naminə vətənpərvərlər" fraksiyasından daha kiçik fraksiyalara gedib. İki nəfər "Yeniləşən Avropa"dan liberallara, eyni sayda mötədil avroskeptik "Avropa Mühafizəkarları və İslahatçılar"a (bu fraksiyada İtaliyanın Baş naziri Giorgia Meloni-nin İtaliya Qardaşları partiyası üstünlük təşkil edir və o, uzaq ölkələrlə əməkdaşlıqdan imtina edir). Yaşıllar və Sol fraksiya hərəyə bir sədr müavini yerini aldı. "Yeniləşən Avropa"nın nəticəsi Le Pen və Bardella üçün xüsusilə xoşagəlməzdir. Bu fraksiya Fransa prezidenti Emmanuel Makrona yaxındır. Bir daha ölkəsinin parlamenti uğrunda mübarizədə olduğu kimi, Le Pen tərəfdarlarını vurub.



Vitse-prezidentlər Avropa Parlamenti Bürosunun əsas iştirakçılarıdır. İndi ultra-sağçılar bu qurumun işində iştirak etməkdən faktiki olaraq kənarlaşdırılıb. Bu məğlubiyyəti sadə şəkildə izah etmək olar: Avropa Parlamentinin "Avropa uğrunda Vətənpərvərlər" və "Suveren Millətlər Avropası"na qarşı üç aparıcı fraksiya: Avropa Xalq Partiyası, Sosialistlərin və Demokratların Mütərəqqi Alyansı, həmçinin "Yeniləşən Avropa" fraksiya birləşib. Onlar həmçinin kiçik fraksiyalardan müttəfiqlər tapdılar. Nəticədə, Avropa Parlamentinin bir deputatının "kordon sanitarçısı" adlandırdığı metod yaradılıb - bu, həddindən artıq sağın hər hansı qərar qəbul etməsinə imkan verməyəcək bir mexanizmdir. "Avropa Vətənpərvərləri" partiyasının üzvü, İtaliya Liqası partiyasının üzvü Paolo Borcia digər fraksiyalardan olan həmkarlarını "seçicilərin iradəsinə qarşı sui-qəsddə" ittiham edib. Bu baxımdan ifrat sağçılar xatırladırlar ki, Avropa Xalq Partiyası yalnız bu yaxınlarda onlarla koalisiya mümkünlüyünü etiraf edib. Amma bu halda nəsihətlərin heç bir təsiri olmayacaq.

Büronun seçki nəticələri fon der Leyenin yeni müddətə təsdiq olunmayacağı ehtimalını çox aşağı edir. Avropa Parlamenti bu məsələ ilə bağlı iyulun 18-də səsvermə keçirməlidir. Əgər fon der Leyen tələb olunan 361 səsi toplaya bilməsə, o zaman Aİ liderləri bir ay ərzində yeni namizəd təklif etməli olacaqlar. Sonra onlar təklif etdikləri digər məmurları geri çağırmalı olacaqlar. Xüsusilə, Estoniyanın keçmiş baş naziri Kay Kallasın Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi vəzifəsinə təsdiqi sual altında qalacaq. Məhz bu vəzifə üçün ultrasağçılar öz namizədlərini irəli sürə bilər. Amma görünür, bu baş verməyəcək.

Avropa Parlamentində yeni qüvvələr balansı, nəhayət, Ukraynaya davamlı dəstək haqqında qətnamənin səsverməsi ilə möhkəmlənib. Parlament 495 deputatın səsi ilə onu dəstəkləyib. Qətnamə digər məsələlərlə yanaşı, Orbanın hərəkətlərini pisləyir. Sənəddə onun Rusiyaya son səfəri "Aİ müqavilələrinin və Avropa İttifaqının ümumi xarici siyasətinin prinsiplərinin kobud şəkildə pozulması" adlandırılır. Lakin Orbanın özünün Donald Trampa sui-qəsd cəhdini pisləmək təklifi, əksinə, keçməyib. Eyni zamanda, avropalı deputatlar onun ABŞ-ın keçmiş prezidentinə münasibətinə görə yox, məhz müəllifinə görə rədd edildiyini gizlətməyiblər.

**V.VƏLİYEV**



Vəli Vəliyev

# Qərbə çox ciddi mesaj

***II Şuşa Qlobal Media Forumu tərtibatına, müzakirə olunan mövzunun aktuallığına, həmin tədbirdə iştirak edən media mənsublarının hansı qurumu təmsil etdiklərinə baxsaq baş verənləri dünyaların müzakirəsi də adlandırmaq olar. Yəni, Forumu mövzusu bir-birinə dost, neytral və düşmən olan ölkələrin nümayəndələrini bir araya gətirməyi bacarmışdı. Bir daha bəlli oldu ki, dünya dezinformasiyadan əziyyət çəkir. Çəkisindən, nüfuzundan asılı olmayaraq media qurumları yalan yazmağı da bacarırlar. Həm də bunu elə şəkildə edirlər ki, ölkələr arasında böyük qalmaqallar da yaşana bilər, hətta müharibələr də baş verər. Prezident İlham Əliyev bir neçə dəfə Qərb mətbuatında Azərbaycan haqqında dezinformasiyaların yer aldığına işarə vurdu. Və həmin yanaşma bu gün də davam edir. İkili standartlar hələ də həqiqətin gizlədilməsinə, ört-basdır edilməsinə xidmət edir.***

Qarabağ münaqişəsi başlananda Azərbaycan ilk zərbəni mətbuatdan aldı, Qərb təmsilçiləri səhifələrində dərc etdirdikləri məqalələrdə Azərbaycan torpaqlarını ələ keçirən Ermənistanın əvəzinə Azərbaycanı işğalçı kimi təqdim etməyə çalışdılar. Bir müddət məqsədlərinə çatmış kimi göründülər, hətta Azərbaycan torpaqlarını hərbi yolla, zorla işğal edən Ermənistanla pay bölgüsü aparmağa cəsarət etdilər. Bir sözlə Qərb mətbuatı bu savaşda həqiqəti gizlətdi, işğalçını gizlətdi, beynəlxalq qanunları, norma və prinsipləri ayaqlar altına atdı. İkinci Qarabağ savaşında Azərbaycan beynəlxalq güclərin fərsiz olduğunu anlayınca özü, həm də təkbaşına torpaqlarını erməni işğalından azad etdi, suveren ərazilərində hüquqlarını bərpa etdi. Azərbaycan yalnız öz torpağında təmizləmə, anti-terror əməliyyatı həyata keçirdi. Ermənistanın təmsil olunduğu hərbi blok – KTMT adlı qurum bu məsələdə çox aciz duruma düşdü, ermənilərin çağırışına biganə qalmalı oldu. Ermənistan rəhbərliyi düşünürdü ki, müharibənin ilk anındaca bütün KTMT üzvləri onun çağırışına qaça-qaça gələcək, Azərbaycana qarşı müharibəyə qoşulacaqlar. Ermənilərin yanlış məlumatlarına rəğmən heç bir ölkə İrəvanla onun apardığı ədalətsiz müharibədə yan-yana durmadı.

Forumun keçirməkdə məqsəd də həm yerli, həm də beynəlxalq media ictimaiyyətinin diqqətini bu sahədə görülə biləcək tədbirlərə cəlb etmək idi. Prezident İlham Əliyevin forum iştirakçıları ilə görüşü ölkəmizdə mediaya göstərilən diqqətin təzahürüdür. Sessiyada dezinformasiyaya qarşı mübarizə, eləcə də saxta xəbərlərin yayılması ilə bağlı məsələlər həm yerli, həm də beynəlxalq ekspertlərin diqqət mərkəzində oldu. Hər kəs bir daha əmin oldu ki, dezinformasiya ilə mübarizə üçün platformanın yaradılması vacibdir.

Azərbaycan regionda sülh yaratmağa çalışır, bunun üçün hətta 30 il torpaqlarımızı işğalda saxlayan Ermənistanla mehriban qonşuluq yolunu seçmək istəyir. Amma 44 günlük müharibədə ağır məğlubiyyətə baxmayaraq Ermənistan uzanan sülh əlini tutmaq istəmir, revanşa hazırlaşır. Baş naziri Nikol Paşinyanın Londonda Azərbaycan rəhbəri ilə görüşdən qaçması da buna bir işarə idi. Bununla da qətiyyətlə demək olar ki, Bakı ilə İrəvan arasında sülh danışıqları dalana dirənib, bunu artıq etiraf etmək lazımdır. "Böyük Britaniya "komediyası" danışıqların uğursuzluğunda əsl səbəbkarın Ermənistan olduğunu bütün çılpaqlığı ilə göstərdi. İrəvanın təəssübkeşləri indiyədək danışıqların nəticəsiz qalınmasında Azərbaycanı günahlandırırdılar və Ermənistanı təmizə çıxarırdılar. Bu gün isə Paşinyan Böyük Britaniyada görüşdən imtina etməsi ilə əsl günahkarın elə Ermənistan olduğunu sübuta yetirdi.

Başqa bir məsələ, region dövlətləri "3+2" formatında danışıqların uğur qazanacağına inandığı halda, Ermənistan yenə cığallıq edir. İlkin mərhələdə bu formatı müsbət qiymətləndirən İrəvan həlledici anda Paşinyana Makronun verdiyi "məsləhət"dən sonra. Fikrindən daşınır. Ermənistanın "3+2" formatına əvvəlcə müsbət yanaşdığını göstərir, iş son mərhələyə çatanda isə yenə də bundan boyun qaçırır və dialoqa hazır olmadığını subut edir. Sülh müqaviləsində də oxşar hadisə baş verir, Ermənistanın ən son anda imzalamadan imtina edəcəyi indidən bəllidir.

Bunun ardınca iyulun 20-də Ermənistan silahlı qüvvələrinin bölmələri Kəlbəcəri atəşə tutur. Əlbəttə, Ermənistanın təxribatları onun üçün yaxşı heç nə vəd etmir. Son aylarda sərhəddə sakitlik idi. Normallaşma istiqamətində işlər aparılırdı. Delimitasiya ilə bağlı müsbət nəticələr də əldə edilmişdi. Bu gün isə vəziyyət mənfiyə doğru dəyişir. Ermənistan tərəfi sülh sazişi üzərində irəliləmək istəyirsə, təxribatlardan çəkinməlidir. Əks təqdirdə bütün sərhəd boyu tam üstünlüyə malik olan Azərbaycan Silahlı Qüvvələri istənilən anda təxribatçı düşmənin cavabını verməyə qadirdir. Ermənistanın törətdiyi çirkin əməllər beynəlxalq media tərəfindən şəffaf şəkildə, qərəzsiz, ikili standartlarsız işıqlandırılsa İrəvan bu qədər irəli gedə bilməz. İşğalçını daha tez ram etmək, ona qulaqburması vermək üçün beynəlxalq qanunların mexanizmi işə düşər, Ermənistanın şıltaqlığına, cığallığına son qoyular. Azərbaycan Prezidenti İlham Əliyevin II Şuşa Qlobal Media Forumunda dediyi kimi: "Əlbəttə, biz istərdik ki, Azərbaycanda və regionda baş verən hadisələr obyektiv şəkildə işıqlandırılsın. Bu, müəyyən dezinformasiya sayəsində obyektiv deyilsə, eybi yoxdur. Ancaq bu, məqsədyönlü şəkildə edilirsə, bu, Azərbaycanı nüfuzdan salmağa yönəlibsə, əlbəttə, biz sual veririk ki, bu, nədən baş verir, bu, niyə belə olmalıdır? Dediyim kimi, bizim bununla bağlı edə biləcəyimiz o qədər də çox deyil. Bu gün Qarabağda apardığımız işlər, ola bilsin ki, bu vəziyyəti dəyişə bilər. Ancaq vaxt keçdikcə siyasi dairələrdə - Qərbdə reallıq daha çox üzə çıxır və Azərbaycana bərabər tərəfdaş kimi yanaşılır".

*Milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz xalqımızın tarixində, özünüdərkində mühüm əhəmiyyət daşıyır. Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə, istər sovet məkanında, istərsə də müstəqillik dövründə yaşadığımız illərdə milli-mənəvi dəyərlərimizin qorunub-saxlanmasına və inkişafına çox böyük önəm verib. Ulu Öndər Heydər Əliyevin siyasi kursu Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğrula davam etdirilir.*



# Dövlət - din münasibətləri - vətəndaş həmrəyliyi



TƏHLİL

Bütün dinlərə hörmətlə yanaşan Azərbaycanın islami dəyərlərə olan münasibəti aydın görünür. Müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət, o cümlədən, dini ocaqlarımıza, məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin və vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir. Dövlət başçısı, mütəmadi olaraq, din xadimləri ilə görüşür, dini konfessiyalara maddi yardımlar edilir və dini ibadət yerləri təmir-bərpa olunub, inanclı insanların istifadəsinə verilir. Ölkə ərazisində 2200-dən artıq məscid fəaliyyət göstərir. Respublikamızda həyata keçirilən din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də, dövlət-din münasibətlərinin mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Ölkəmizdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi fəaliyyət göstərir. Azərbaycan Prezidentinin məlum Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılıb. Əsrlərin süzgəcindən keçərək, müasir dövrümüzədək qoruyub-saxladığımız milli-mənəvi, dini adət-ənənələrimiz yaşayır və düzgün şəkildə insanlara çatdırılır.

Artıq ölkəmizdə bir neçə gündür ki, məhərrəm ayı başlayıb. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının rəsmi hesablamalarına görə Hicri-qəməri təqvimi ilə 1445-cü il başa çatır. Əsrlər boyu Azərbaycan xalqının yaddaşında iz qoyan Məhərrəm ayının Aşura günü – Peyğəmbərimiz Məhəmməd (s.a.s.) əziz nəvəsi İmam Hüseyn əleyhissalamın ailəsi və səhabələri ilə birlikdə haqsızlığa və zülmə qarşı mübarizədə şəhadətə yetişməsi tarixdə fədakarlıq salnaməsi kimi dəyərləndirilir. Kərbəla şəhidləri İslamın "yaxşılığa dəvət və pislikdən çəkindirmə" məfkurəsini bütün ümmət üçün örnək nümunəyə çevirmiş, din, Vətən, torpaq, ailə şərəfi və müqəddəs amallar uğrunda şəhadətin mükəmməl əxlaq nümunəsini yaratmışlar. Ulu Öndər Heydər Əliyev Təzəpir məscidində Aşura mərasimindəki tarixi çıxışında demişdi: "Biz bundan sonra da haqq-ədalət, torpaq, Vətən yolunda şəhid olmuş Həzrəti imam Hüseynin və onun bütün silahdaşlarının qəhrəmanlığını, şəhidliyini heç vaxt unutmayacağıq".

## QARABAĞDA, ŞƏRQİ ZƏNGƏZURDA MÜQƏDDƏS MƏBƏDLƏRİMİZ ƏSARƏTDƏN QURTULDU

Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti, ordumuzun hünəri ilə Azərbaycanın dövlət bayrağı azad Qarabağda, Şuşada, Xankəndidə dalğalanır, məscidlərin minarələrindən Azan səsləri ucalır, müqəddəs məbədlərimiz əsarətdən qurtulmuşdur. Bu ilki Məhərrəm ayında müstəqillik tariximizdə ilk dəfə ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş ölkəmizdə Böyük Qayıdışın ruh yüksəkliyi yaşanır, ata-baba torpaqlarına qayıdanlar ibadətlərini doğma məkanlarda yerinə yetirirlər.

Azad olunmuş torpaqlarımızda gedən dinc quruculuq, yenidənqurma işləri, dini-mənəvi abidələrə yeni həyat bəxş olunması, vandalizmə məruz qalmış ziyarətgahlara, qəbirstanlıqlarımıza sahib çıxılması, soydaşlarımızın dədə-baba torpaqlarına qayıdışı istiqamətində dövlət başçımız tərəfindən həyata keçirilən tədbirlər təqdirəlayiqdir.

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, dini mərasimlər məscid, ziyarətgah və onlara aid ərazilərdə keçirilir. Allah yanında imanın, mənəviyyatın yüksək məqamlarından biri – ailə, torpaq və Vətən uğrunda şəhidlikdir. Məhərrəmlik dönəmində ibadət və dualarımızda Kərbəla şəhidləri ilə yanaşı Birinci və İkinci Qarabağ müharibəsində Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman övladlarımızın, həmçinin 20 Yanvar və Xocalı soyqırımı qurbanlarının əziz xatirəsini yad etməklə şəhidlərimizə rəhmət, qazilərimizə şəfalar diləmək bizim vəfa borcumuzdur.

## MİLLİ-MƏNƏVİ VƏ DİNİ DƏYƏRLƏRİMİZƏ BÖYÜK EHTİRAM

Bu gün ölkəmizdə bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir, eləcə də bir çoxları yenidən tikilir. Dövlətimiz tərəfindən tarixi-mədəni irsin, eləcə də dini ziyarətgahların, maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsi daim diqqət mərkəzində saxlanılır və bu siyasət işğaldan azad olunmuş torpaqlarımızda da uğurla davam etdirilir. Çoxəsrlik tarixə malik olan abidələrimizə, dini ziyarətgahlarımıza, maddi-mədəniyyət abidələrimizə yeni həyat verilir. Azərbaycanda dini abidələrin dövlət tərəfindən qorunması, bərpası və tikintisi milli dəyərlərimizə olan münasibətin təzahürüdür. Müstəqillik dövründə yüzlərlə dini abidələrin bərpası və tikintisi fikrimizi əsaslandırır. Azərbaycan xalqının milli-mənəvi və dini dəyərlərinə böyük ehtiramla yanaşan Ümummilli Lider Heydər Əliyev müstəqilliyin ilk illərində sovet dövründə fəaliyyəti dayandırılmış və yararsız vəziyyətə düşmüş məscidlərin bərpası və yenidən qurulmasına xüsusi önəm verib. Belə ki, Ulu Öndər Heydər Əliyevin imzaladığı Sərəncama əsasən, dağıdılmış tarixi Bibiheybət məscid-ziyarətgah kompleksi yenidən tikilərək 1998-ci ildə istifadəyə verildi. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dini məbədlərin bərpası və təmiri, eləcə də yenidən tikilməsi Prezident İlham Əliyev tərəfindən daha genişmiqyaslı şəkildə davam etdirilir. Tariximiz, xalqımız üçün çox böyük əhəmiyyət daşıyan Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı cümə məscidləri və digər məscidlər yenidən qurulmuş və əsaslı təmir edilib. Bakıdakı Heydər Məscidi, Gəncədə "İmamzadə" kompleksi kimi binalar da Azərbaycan milli memarlığının və incəsənətinin nailiyyətlərinin parlaq nümunələri olmaqla yanaşı, insanların ibadət və dua etmələrinə imkan yaradır.

Azərbaycanda paytaxt Bakının Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində "Xanım Fatimeyi Zəhra" məscidinin müasir kompleksinin istifadəyə verilməsi müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpasına dövlətimiz tərəfindən ayrılan diqqətin daha bir göstəricisidir. Əminliklə deyə bilərik ki, dini abidələrimizin təmir və bərpası Azərbaycanda bu sahədə dövlət siyasətinin real mənzərəsinin ifadəsidir.

Bu sahəyə dövlət qayğısının artması dəyərlərimizi dünyada tanıtmaq sahəsində əhəmiyyətli rol oynayır. Təbii ki, görülən bu işlərdə əsas məqsəd vətəndaşların rahat ibadət etmələrini təmin etməkdir.

## "MÜSƏLMAN ALƏMİNDƏ HƏMRƏYLİYİN MÖHKƏMLƏNDİRİLMƏSİ ÜÇÜN SƏYLƏRİMİZİ ƏSİRGƏMİRİK"

Bu gün işğaldan azad olunan ərazilərimizdə də dini abidələr təmir və bərpadan sonra istifadəyə verilir. Belə ki, Şuşada Aşağı Gövhər Ağa məscidinin bərpadan sonra açılışıolub. Şuşa şəhəri işğal altında olduğu illərdə erməni vandalizminə məruz qalmış Aşağı Gövhər Ağa məscidində aparılan bərpa işləri başa çatıb. XIX əsrdə Kərbəlayi Səfixan Qarabağinin memarlığı ilə ərsəyə gələn Aşağı Gövhər Ağa məscidi İbrahim xanın qızı Gövhər Ağa tərəfindən Şuşada inşa etdirilmiş məscidlərdən birincisi sayılır. Aşağı Gövhər Ağa məscidi şəhərin tarixi-memarlıq rəmzlərindən biridir. Şuşa şəhəri tarixən yuxarı və aşağı olmaqla 17 məhəllədən ibarət olub. Aşağı Gövhər Ağa məscidi şəhərin aşağı hissəsində yerləşdiyinə görə belə adlandırılıb. Məscidi daha uca və cəlbedici etmək üçün memar minarələri arxa fasadda yerləşdirib. İkimərtəbəli məscidin silindrşəkilli minarələri kərpicdən hörülüb, ibadət zalı çatma tağ günbəzlə örtülüb. Şuşanın işğalı zamanı məscidin binası və minarələri ermənilərin zirehli texnikalarının atəşlərinə məruz qalaraq ciddi zədələnmiş, məscid vandalizmin qurbanına çevrilmişdi.

Bərpa işləri zamanı Aşağı Gövhər Ağa məscidində erməni vandalizminə dair bir sıra faktlar aşkarlanıb. Belə ki, məscid divarlarında müxtəlif yazılar, müdaxilələr, o cümlədən divara həkk olunmuş xaç işarəsi müəyyən edilib. İşğal dövründə erməni vandalizminə məruz qalmış mədrəsə binasının dağıntılarının bir qismi də konservasiya olunub. Məscidə gələn hər bir ziyarətçi tarixi-dini abidəyə qarşı erməni vandalizminə dair bu faktların şahidi ola bilər. Qeyd edək ki, məscid ərazisindəki tarixi mədrəsə binasında hazırda muzey yaradılıb.

Muzeydə dünyada tolerant ölkə kimi tanınan Azərbaycanda tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin qorunmasına, dini abidələrin bərpası və mühafizəsinə daim diqqət yetirilməsinə dair məlumatlar əks olunub. Ölkəmizdə ayrı-ayrı dinlərin məbədləri bütün dövrlərdə yüksək səviyyədə mühafizə olunub, məscid, kilsə və sinaqoqlar təmir və bərpa edilib. Azərbaycan xalqının qədim mədəniyyətinin təşəkkül tapdığı Qarabağ və Şərqi Zəngəzur əraziləri öz tarixi, maddi-mədəniyyət və dini abidələri ilə hər zaman zəngin olub. Təəssüf ki, 30 ilə yaxın davam edən işğal dövründə əzəli Azərbaycan torpaqlarında olan bütün dini abidələrə qarşı vəhşiliklər törədilmişdir. Erməni təcavüzkarları şəhər və rayonları, oradakı yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıtmış, təbii sərvətləri talan etmiş, bu ərazilərdəki dini, tarix və mədəniyyət abidələrini vandalizm aktlarına məruz qoymuşdur.

İşğalın ən ağır fəsadlarından biri bəşəri əhəmiyyətə malik mədəni irsin, o cümlədən İslam dininə aid abidələrin qəsdən dağıdılması və məhv edilməsidir. İlkin araşdırmalara görə, işğal dövründə 65 məscidin yerləyeksan edildiyinə dair məlumatlar olsa da, təəssüf ki, bu rəqəmlər getdikcə artmaqdadır. Muzeydə Qarabağ və Şərqi Zəngəzur ərazilərində mövcud olmuş bir sıra dini abidələrə qarşı törədilmiş vandalizmin ümumi mənzərəsini əks etdirmək və həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq məqsədilə foto və videomateriallar nümayiş olunur.

İndi əzəli sakinlər bu yerlərdə dini ayinləri yerinə yetirirlər. Zidiyyətlərlə zəngin iyirmi birinci yüzillikdə Azərbaycan ənənələrinə sadiq qalaraq milli mənəvi dəyərlərə önəm verərək islamofobiya, islam adından sui-istifadə edərək qırğınlar törədənlərə malik olduğu dəyərləri ilə çağırışlar edərək onları sülhə, dostluğa dəvət edir. Azərbaycan Prezidenti Cənab İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Azərbaycan modeli, Azərbaycan nümunəsi bu gün dünyanın müxtəlif ölkələrində öyrənilir. Bizim bu istiqamətdəki siyasətimiz artıq özünü həm ölkəmizdə, həm bölgədə və həm də dünyada təsdiq etmişdir. Biz öz milli mənəvi, dini dəyərlərimizə sadiqik, onları qoruyuruq, eyni zamanda, müsəlman aləmində həmrəyliyin möhkəmləndirilməsi üçün səylərimizi əsirgəmirik".

**ZÜMRÜD BAYRAMOVA**




# II Qlobal Media Forumunun keçirilməsi ölkəmizin əldə etdiyi növbəti beynəlxalq uğurdur

***"Bu gün dövlətimiz beynəlxalq siyasi, iqtisadi, mədəni proseslərin fəal və böyük təsir gücünə malik iştirakçısı olduğu kimi, Azərbaycan mətbuatı da qlobalinformasiya şəbəkəsinin bir parçasıdır. Hazırda respublikamızda çoxsaylı qəzet və jurnallar nəşrolunur, onlayn media inkişaf edir.***



İnformasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatının qlobal informasiya şəbəkəsinin bir hissəsi kimi özrolunu uğurla yerinə yetirməsinə şərait yaradır. Bu sözləri SİA-ya açıqlamasında YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev deyib. O bildirib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulanvə bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət nəticəsində milli mətbuatımız yüksək diqqət və qayğı ilə əhatə olunub. Dövlət rəhbərimizin ali siyasi iradəsi nəticəsindəölkəmizdə mətbuat azadlığı prinsipləri bərqərar olmuş, çoxlu sayda qəzet və jurnalın fəaliyyəti üçün münbit şərait təmin edilmişdir.

Qeyd edək ki, əldə olunan Zəfərlərdə üzərinə düşən vəzifəni layiqincə yerinə yetirən Azərbaycan mediası ona bəslənən etimadı yüksək səviyyədə yerinə yetirmişdir. Ölkə mediası o tarixi günlərdə Azərbaycan həqiqətlərinin dünyaya düzgün çatdırılması missiyasını uğurla həyata keçirdi və indi də bu missiyanı davam etdirərək ölkəmizin düşmən təbliğatına qarşıinformasiya mübarizəsinə töhfələrini verməkdədir. Prezident İlham Əliyevin Vətən müharibəsi dövründə 30-dan çox beynəlxalq media qurumuna geniş müsahibələri mövcud reallıqların dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı.

Azərbaycan mediası beynəlxalq səviyyədə öz nüfuzunu gündən-günə artırmaqdadır. Beynəlxalq səviyyəli tədbirlərdə əsasən ölkəmizin ev sahibliyietdiyi tədbirlər dünya üçün mühüm əhəmiyyətə malik olur. Cari ilin İyulun 20-də Prezident cənab İlham Əliyevin iştirakı ilə "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun açılış mərasimikeçirilib. 50-yə yaxın ölkədən 150-dən çox xariciqonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumunun nümayəndələrinin qatıldığı Forum iştirakçılar üçün birgə müzakirə və hərəkət platformasırolunu oynayıb. Ölkə başçısı cənab İlham Əliyev tərəfindən səsləndirilən fikirlər dünyanın müxtəlif ölkələrində jurnalistlərin, beynəlxalq ekspert və politoloqların suallarına verdiyi ətraflı cavablar dünya mediasının diqqət mərkəzində olub.

Prezident cənab İlham Əliyevin hər bir çıxışı mühüm çağırışlarla, mesajlarla zəngindir. Dövlətimizin başçısı sözügedən Forumdakı çıxışında diqqətidünyanın ikili standartlara əsaslanan siyasəti fonunda reallıqlara qərəzli yanaşmalarada yönəltdi. Qeyd etdiki, natamam, qeyri-dəqiq və manipulyasiya edilmiş hesabatlar Qərbdən qaynaqlanır. O, gündəlik həyatımıza çevrilir. Artıq Qərbdə siyasi dairələrdə reallıq daha çox üzə çıxır və Azərbaycana bərabər tərəfdaş kimi yanaşılır. Biz qarşılıqlı hörmət, qarşılıqlı anlayış, qarşılıqlı maraqların gözlənilməsi və uzunəsrlər boyu xalqlarımız arasında əlaqələrə əsaslanaraq münasibətləri formalaşdırırıq. Forumda Azərbaycanın reallıqları sırasında iqtisadi uğurlara xüsusi diqqət göstərildiyini bildirib. Ölkəmizin enerji sektorunda qazandığı uğurlar, yeni əməkdaşlıq formatlarının yaradılması üçün mövcudimkanlar, Azərbaycan qazının Avropaya nəqlinin ikidəfə artırılmasının əsas hədəflərimizdən olduğu genişmüzakirə edilib.

Forumda tədbir iştirakçılarına BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası ilə əlaqədar həyatakeçirilən tədbirlər və hazırlıq işləri, ölkə səviyyəsində iqlim dəyişikliyinin təsirləri ilə aparılan mübarizə, azadedilmiş ərazilərdə bərpa və yenidənqurma prosesindənümayiş edilən dayanıqlı yanaşma barədə geniş məlumat verilib.

Prezident cənab İlham Əliyev Forumda çıxışı zamanı qeyd edib ki, "Azərbaycan kimi ölkədə media qurumları işini olduqca yüksək səviyyədə quraraq işləməlidir ki, dövlətimiz üçün mühüm önəm daşıyan xəbərə, yaxşı və ya pis hazır olsun. Sosial media cəmiyyətin nəbzini hiss etməli və yaxın köməkçisi olmalıdır. Respublikamızın iqtisadiyyatı yüksəksəviyyədə inkişaf etdiyinə görə region dövlətləri içərisində öndə gedir. Özünü dünyada enerji istehsalçısı kimi sübut edən Azərbaycan Avropanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından birikimi təqdim edir". Ölkəmiz Beynəlxalq Şərq-Qərb, Şimal-Cənub nəqliyyat qovşağı kimi məsuliyyətli vəzifəni layiqincə yerinə yetirib. Bütün bunların sayəsində təbii olaraq respublikamızın regional və dünya iqtisadiyyatında rolu və əhəmiyyəti xeyli yüksəlib. Bu gün də ölkəmiz Cənubi Qafqaz regionunda inkişafına, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması sahəsində apardığı islahatlara görədünya mediasının diqqət mərkəzindədir. Əminliklə deyə bilərik ki, aparılan bu siyasət davamlı olacaqdır.

Qeyd edək ki, Forum çərçivəsində həm də "Təsirin qiymətləndirilməsi: Dezinformasiyanın əhatə dairəsinimüəyyənləşdirmək", "Dezinformasiyaya qarşı dahadavamlı cəmiyyət qurmaq üçün siyasət vətəşəbbüslər", "Süni intellektin reallığa, mediaya vədezinformasiyaya təsiri: Media savadlılığının təşviqi" və "İqlim hərəkatı və media" mövzularında dörd panel sessiya təşkil olunub. Panel sessiyalarda müxtəlifölkələrdən olan rəsmilər, media və vətəndaş cəmiyyəti, dövlət və biznes nümayəndələri, beynəlxalq təşkilatların təmsilçiləri və media ekspertləri ətraflıfikir və təcrübə mübadiləsi aparıblar".

***Səbinə Hüseynli***



**Elçin Bayramlı**

# Kasıbyana yay istirahəti: hansı imkanlar var?

Dünyanın bütün sivil ölkələrində insanlar yay tətilində həm öz ölkələrində, həm də xarici ölkələrə səyahət edə bilir, yarım ay, bir ay müddətində istirahət edirlər. Bundan başqa, hər həftəsonu şəhərkənarı təbiət guşələrində qısa müddətli "piknik" adlandırılan istirahət formasından yararlanırlar. Azərbaycanda bu sahədə bir sıra problemlər var. Əhalinin təminatlı hissəsi öz istirahətlərini həm ölkəmizin gözəl təbiət guşələrində, həm də xarici ölkələrdə keçirirlər. Lakin aztəminatlı hissə bu imkanlardan məhrumdur. Çünki, xarici ölkələr bir yana qalsın, ölkəmizin daxilindəki turizm müəssisələrinin qiymətləri çox yüksəkdir. Bu səbəbdən də sadə bir ailənin belə mərkəzlərdə bircə həftəlik istirahəti üçün belə maliyyə imkanı yoxdur. Bunun üçün ailə başçısı bir neçə aylıq maaşınından keçməlidir.

Sovet dövründə həmkarlar təşkilatları bütün işçilərə növbə ilə putyovkalar təşkil edirdilər və onlar da ölkənin müxtəlif sanatoriyalarında istirahət edir, hətta müalicə alırdılar. Bu gün həmkarlar təşkilatı formal olaraq mövcuddur və belə putyovka almaq mində bir adama nəsib olur.

Belə bir halda yalnız yaxın ərazilərdə qısamüddətli istirahət, yəni "piknik" haqda düşünmək olar. Çox təəssüf ki, Bakı ətrafı ərazilərdə təbiət (meşə, çay, göl) olmadığından, şəhərdən 100 km-ə qədər radiusda ərazilər səhralıq olduğundan Bakı sakinləri bu imkandan da məhrumdurlar. Dəniz kənarında yerləşən Bakı bağlarında 1 günlük ev kirayə edib istirahət etmək istəsəniz bir neçə yüz manatınızdan keçməli olacaqsınız. Bu da aztəminatlı təbəqə üçün əlçatan deyil.

Bu halda isə ümid qalır lap balaca istirahətə- yəni şəhər daxilində bir neçə saatlıq "piknik"ə. Bu imkan da ancaq çimərliklərdən və şəhərkənarı bəzi parklardan ibarətdir. Çimərliklərdə qiymətlər o qədər də ucuz deyil və 1 ailənin pullu çimərliyə gedib istirahət etməsi azı 50-100 manata başa gələcək. Pulsuz cəmi bir neçə çimərlik var ki, onlarda da adam əlindən tərpənmək olmur, heç dənizə girməyə belə yer qalmır.

Yaşıllıq sahələri və parklara gəldikdə Bakı və ətrafında bir neçə belə məkan var. İnsanlar evdən bəzi qida məhsulları götürərək orada istirahət edə bilirlər. Lakin bu da pulsuz başa gəlmir. Orada olan bəzi xidmətlərdən istifadə etməli olursan, dayanacaq haqqı ödəyirsən, uşaq bir neçə karusele minir, sərin bir içki içmək istəyəndə 3 qatına almalı olursan. Adi parklarda atraksionların qiyməti 2 manatdan başlayır. Əvvəllər 1 manat idi, qiymətin niyə 2 dəfə artmasının izahı hələ də tapılmayıb.

Bakı Zooparkı şəhərimizdə ən yaxşı təbiət güşəsidir. Burada da getdikcə bilet qiymətlərini artırırlar. Təsəvvür edin ki, əvvələr 1-2 manat olan biletin qiyməti indi böyüklər üçün 7 manat, uşaqlar üçün isə 2 manatdır. Uşağın təkbaşına gedə bilməyəcəyini nəzərə alsaq, 1 uşağın Zooparka baxması üçün bilet haqqı 9 manata başa gəlir. Üstəlik, Zooparkın daxilindəki satış nöqtələrində su, şirniyyat və sair məhsullar 3 qat qiymətə satılır. Daxildəki kafedə oturub yemək yemək isə çox baha başa gəlir. Yəni, 50 manatla qurtara bilmirsən.

Mərdəkanda Dendrapark var, amma ora da gedib gəlmək və bir iki xırda xuruş almaq (çay, su, şirniyyat və s) elə 50 manatdan çox pul tələb edir.

Bəziləri dəniz sahilində balıq tutmaqla istirahət etmiş olur. Qalanları isə şənbə-bazar günlərini yaxınlıqdakı çayxanada və həyətdə qonşularla söhbətləşmədə, ya da evdə oturub kinoya filana baxmaqla keçirir. Bizdə kütləvi piknik mədəniyyəti hələ də formalaşmayıb. Çünki nə müvafiq imkanlar var, nə sadə insanlar üçün sərfəlidir.

Mədəni ölkələrdə çox sayda pulsuz belə yerlər təşkil olunur və insanlar həftə sonlarını təbiət qoynunda keçirirlər. Bizdə isə harda təbiət adlı bir yer var, dərhal özelləşdirilir və yüksək qiymətlərlə xidmət göstərir. Belə bir vəziyyətdə istirahət edə bilməyən insanlarda aqerssivlik artır, stress və yoğrunluq halı yüksəlir, iş qabiliyyəti azalır.

Bir çox yerlərdə meşələr, çay və göəl kənarları, dəniz sahili ümxtəlif şəxslər və müəssiələr tərəfindən tutulub və çəpərlənib. İnsanların vaxtilə pulsuz istirahət etditi təbiət guzşələrinə girişi məhdudlaşdırılıb. Ölkənin təbii sərvətləri (meşə, gözəl, çay, dəniz, çöl və s) qanunla bütün vətəndaşların birgə mülkiyyətidir və kimsə haransa zəbt edib vətəndaşları ora buraxmaya bilməz.

Bu məsələlərlə bağlı müvafiq orqanlar tərəfindən ciddi bir iş aparılmalı, qanunun tələbi yerinə yetirilməli və vətəndaşların öz vətənlərinin təbii sərvətlərindən istifadəsinə yaradılan süni maneələr aradan qaldırılmalıdır.

***Rəqəmsallaşmanın, texnoloji yeniliklərin, virtual dünyanın həyatımıza bu qədər dərin və əhatəli girməsindən sonra bir çox peşələr online rejimə keçib. İndi dilənçilər də pul qazanmağın daha rahat yolunu tapıblar, əllərində telefon sosial şəbəkələri gəzirlər. Birindən pul, birindən ərzaq, birindən geyim istəməklə evdə otura-otura güzəranlarını yaxşılaşdırırlar.***



# “Kart atım, kömək elə” - rəqəmsallaşan dilənçilik







### Kart hesabı ilə dilənənlər

Dilənçilik bəşəriyyət mövcud olandan bəri var olan bir peşədir. Bəzi dövrlərdə artıb, bəzi dövrlərdə azalıb. Amma dilənçilik heç bir cəmiyyətdə tam olaraq aradan qalxmayıb. Təbii ki, dilənçiliyin bir çox növləri var. Amma bu yazıda son illər geniş yayılan “virtual dilənçilik”lə bağlı danışmaq istədim.

“Virtual dilənçilər” və ya “sosial şəbəkə dilənçiləri” kimi tanınan bəzi insanlar rəqəmsal dünyanı gəlir mənbəyinə çeviriblər. Yalan paylaşımlarla insanların mərhəmətini sümürərək pul tələb edən virtual dilənçilər insan ləyaqətinin nə qədər alçala biləcəyini göstərirlər. Yalandan balasını öldürən kim, anasını qəbrə qoyan kim, yoldaşını ölümcül xəstə edən kim. Hərə bir kart hesabı yayıb kömək dilənir. Onların kölgəsində qalan həqiqətən ehtiyaclı, xəstəsi olan insanlara da inamımız itir.

İnternetin həyatımızdakı ən vacib amilə çevrilməsi, əlimizdəki telefonların, önümüzdəki monitorların az zamanda çox işi görməsi təbii ki, həyatımızı bir çox cəhətdən asanlaşdırdı. Təbii olaraq bir çox iş zamanla virtual dünyaya inteqrasiya etdi.. Banklar internet bankçılığa keçdi, mağazalar online satışla məşğul oldu, kafelər yeməklərini online yolla satdı, təhsil distant üsulla verildi və s. Dilənçilər də texnologiyaya uyğunlaşdılar. İndi bir çox dilənçi virtual mühitdə dilənməyə başlayıb. Axı biz həmişə deyirik, texnologiya inkişaf edib və hamı onunla ayaqlaşmalıdır. Bunun bir nümunəsi də dilənçilər oldu.

Klassik dilənçilərin ən çox diləndikləri yer insanların gur olduğu yerlər idi, onların müasirləri dilənmək üçün ən münasib yeri – sosial şəbəkələri seçib. Sizə maraqlı gələ bilər, hətta internet məkanında virtual dilənçilik üçün saytlar da var. Bu saytlara üzv olub reklam verəndə sədəqə toplasanız, platformaya müəyyən komissiya verib saytda dilənməyə davam edə bilərsiniz. Amma dilənçilər üçün sosial şəbəkələr daha münbit yerdir. Burada dilənçilik edənlərin daha çox qazanc əldə etdiyini deyə bilərik. Vasitəçi olmadığı üçün iş daha asandır və hər təbəqədən olan insanlar var. Üstəlik, daha çox mərhəmətli və tez aldanan olurlar, onların inamından sui-istifadə etmək asan olur.




### Kimlər, niyə, necə?

Dilənənlər müxtəlif olur. Daha çox ailə başçısını itirdiyini deyən qadınların paylaşımı rastımıza çıxır. İddiaları belədir, bir çox halda yalan olur. Böyük qruplarda, səhifələrdə tez-tez paylaşım edirlər, təsirli mətn yazırlar, uşaqlarının ac olduğunu, işləyib qazandığı pulun yalnız kirayəyə və kommunal xidmətlərə yetdiyini, çətinlik çəkdiklərini iddia edirlər, kart hesabı atıb yardım istəyirlər. Bizim milli psixologiyamız elədir ki, uşaqların adı olan hər yerdə həyat durur, onlar bizim qırmızı xəttimizdir. Uşaqlarının ac olduğunu deyən birinə sorğu-sualsız hamı yardım edir. Bəzən şahidi olmuşam ki, bir paylaşımına 200-300 manat pul yığılıb. Bu paylaşımlar hər gün, fərqli adlarla, fərqli profillərlə edilir, mətni və nəql elədiyi hekayəni dəyişməklə təbii ki.

Qazi ailəsi olduğunu iddia edənlər də dilənənlər arasında çoxluq təşkil edir. Həyat yoldaşının müharibə iştirakçısı olduğunu, müharibədə yaralandığını, müalicə üçün maddi vəsaitlərinin olmadığını, qazinin öz vəziyyətindən utanaraq şəxsən müraciət etmədiyini iddia edən naməlum profillər vasitəsi ilə ianə toplanır. Toplanan vəsait hara gedir, necə və nəyə xərclənir, məlumdur. Qazi yalanı işin mərhəmət sümürmə nöqtəsidir, əslində, yazan online dilənçilərdir.

Övladının xəstə olduğunu iddia edənlər də çoxdur. Oxunmayan və yaxud kimə aid olduğu məlum olmayan bir xəstəlik tarixçəsini sosial şəbəkələrdə yayıb kömək istəyənlərə həkim məsləhət görəndə, özün həkimə aparmaq istəyəndə, evini, uşağı görmək istədiyini yazanda yoxa çıxır, hesabını dondurur. Lakin deməliyəm ki, həqiqətən xəstə övladının şəklini, videolarını yayan insanlar da var ki, müalicə, həkim təklif edəndə razılaşırlar. Çünki paylaşımda məqsəd pul yığmaq yox, övladını müalicə etdirə bilməkdir.

### Yardım edək, ya etməyək?

Uzun illərin sosial şəbəkə istifadəçisi kimi deyərdim ki, araşdırmadan əsla! Sizə yazan, yardım istəyən, pula ehtiyacı olduğunu deyən insanı şəxsən tanımırsınızsa əsla inanmayın. Əmin olun ki, həqiqi ehtiyacı olan şəxs nə evini, nə ailəsini, nə də özünü gizlətməz, anonim paylaşım etməz. Əgər nə adı, nə profil şəkli, nə də haqqında olan məlumatlar dəqiq deyilsə, böyük ehtimalla online dilənçidir, insanların mərhəmətini sümürməklə özünə gəlir yeri əldə edib.

Qəssab dükanı önündə marığa yatmış pişik kimi yardım qruplarında fürsət gözləyən bu cür insanlar, əllərinə keçən bütün imkanlardan istifadə etməklə hər ay yaxşı gəlir əldə edirlər. Mərhəmətinə yenilib son manatını paylaşılan kart hesabına göndərən insanların sayəsində ən yaxşı yerlərdə əylənir, ən bahalı əyləncə məkanlarında gəzirlər. İanə edilən pulların bir qazinin, bir uşağın, bir ailənin köməyinə yetdiyini düşünən saf insanlar beləcə aldadılır. Aldadıldığının fərqinə varanda çətin ki, bir də kiməsə kömək etmək fikrinə düşsün. Beləcə mərhəmətimizdən bəlo doğulur, inamımız sui-istifadə olunur, həqiqi ehtiyaclı insanlar da o fırıldaqçılığın kölgəsində qalır.

***Lalə Mehralı***

# "Milli Mətbuatımızın 149 illik şərəfli bir tarixi var"



MÜNASİBƏT

"Milli Mətbuatımızın 149 illik şərəfli bir tarixi var. Həsənbəy Zərdabinin Əkinçi qəzeti ilə işıq üzü görən Azərbaycan milli mətbuatı tarixin müxtəlif mərhələlərində müxtəlif şəkillərdə fəaliyyətini davam etdirmiş və müasir müstəqil Azərbaycanın inkişaf etmiş azad və demokratik fəaliyyəti sahəsinə çevrilmişdir. Ulu Öndər Heydər Əliyevin xüsusi qayğısı ilə 1993-cü ildən yeni mərhələyə qədəm qoyan mətbuatımız 1998-ci ildə ümumiyyətlə senzuranı ləğv edilməklə sərbəst söz və informasiya azadlığı təmin olunmuş oldu. Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasi kursunun göstəricisidir ki, mətbuat işçiləri mənzillərlə təmin olunmuş, müəyyən qurumlar yaradılmış, bu sektora vergi və gömrük güzəştləri tətbiq olunmuş, fəaliyyətini tənzimləyən Mətbuat haqqında qanun qəbul olunmuş və dövlət dəstəyi davam etdirilməkdədir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib.

Deputat bildirib ki, Milli mətbuatımızın qarşısında müstəqillik illərinin müxtəlif dövürlərində müxtəlif və məsuliyyətli vəzifələr dayanırdı. Bu vəzifələr torpaqlarımız işğal altında olduğu və qələbə əldə etdiyimiz dövürdə beynəlxalq və daxili auditoriyada dezinformasiyaya qarşı mübarizə aparmaqla haqq səsimizin çatırılması üzərində qurulmuşdur. İndi isə mətbuatımız ölkəmizin inkişafını, işğaldan azad olunmuş ərazilərin yenidənn qurulub bərpasını, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılmasını, ölkəmizin sülh gündəliyini müxtəlif auditoriyalara çatdırılmasında xüsusi rol oynayır.. Keçən ildən 21-22 iyul tarixlərində keçirilməyə başlanmış Şuşa Qlobal Media Forumları beynəlxalq informasiya agentlikləri vasitəsilə mövcud reallıqları dünya ictimaiyyətinə çatdırılmasına xüsusi rol oynayaır. Azərbaycan



həqiqətlərini və yaratdığımız reallıqları dünyaya çatdırılmasında dövlət başçımızın rolu xüsusi qeyd olunmalıdır. Şuşa Qlobal Media Forumu dünya mətbuatının manşetində əsas xəbər kimi verilməsi bu tədbirin beynəlxalq əhəmiyyətinin nə qədər böyük olduğunu göstərir. Şuşa Qlobal Media Forumlarının keçirilməsi ənənə halı almışdır. Bu forumların yüksək səviyyədə təşkili ölkəmizin mətbuata verdiyi böyük dəyərdən irəli gəlir. Sonda 22 iyul Mətbuat Günü münasibətilə media sahəsində çalışan bütün əməkdaşları təbrik edir, məsuliyyətli və şərəfli fəaliyyətlərində uğurlar arzulayıram".

***Səbinə Hüseynli***

# İlon Maskın LGBT mövzusunda mövqeyi- Mask Kaliforniyadan niyə çəkilir?




ABŞ-lı milyarder iş adamı İlon Mask iki ən böyük şirkətinin, kosmik nəqliyyat şirkəti SpaceX və sosial media platforması X-in ofislərini Kaliforniyadan Texasa köçürmək qərarına gəlib. Qərarını sosial mediada açıqlayan Mask Kaliforniya əyalətinin məktəblərdə cinsi kimliklə bağlı tətbiq edəcəyi AB 1955 adlı qanuna istinad edib.

Dünən Kaliforniya qubernatoru Gavin Nevsom tərəfindən imzalanan qanuna görə, ştatın məktəblərindəki müəllimlər, şagirdlərin icazəsi olmadan valideynləri də daxil olmaqla hər hansı digər şəxslə onların cinsi kimliyi haqqında məlumat paylaşmayacaqlar. Qanun təsdiqləndikdən sonra Elon Mask bu qərara "Qabı daşıran son damcı" deyərək ofislərinin köçürülməsi barədə açıqlama verib. Bir il əvvəl də ABŞ-da bu mövzu gündəmdə idi. Belə ki, bir çox tanınmış amerikalı ilə birlikdə Mask, Qubernator Nevsoma qəti şəkildə qarşı çıxmışdı. Onlar iddia edirdi ki, belə qanunlar kütləri uşaqlarını qorumaq üçün Kaliforniyanı tərk etməyə məcbur edəcək. Kaliforniya ştatında qüvvədə olacaq yeni qanunun təfərrüatlarına gəlincə, qanun əsasən uşaqların cinsi kimliyi ilə bağlı məktəblərin ailələrə hansı məlumatları verməli olduğunu tənzimləyir. Qanunu dəstəkləyən LGBT hüquqlarını müdafiə edən fəallar, tələbələrin şəxsi toxunulmazlıq hüququna malik olduğunu desələr də, qanuna qarşı çıxanlar "valideynlərin övladlarında baş verən dəyişikliklərlə bağlı məlumat almaq hüququna malik olduğun" iddia edirlər. Beləliklə, ailələrin və cəmiyyətin dəyərlərinə hücum edən bu və buna bənzər qanunlara görə, SpaceX öz qərargahını Kaliforniya ştatından Texas ştatına köçürəcək. Görünən odur ki, siyasi fiqur halına gələn Mask mühafizəkar mövqe almaqdadır.

Qubernator Nevsoma gəlincə isə o, ABŞ prezidenti Co Baydenin prezidentlik yarışından çəkilməsindən sonra Baydeni əvəz edə biləcək adlar arasında yer alıb. Onun administrasiyası isə verdikləri qərarı müdafiə edərək qanun layihəsinin siyasətçilərin və məktəb işçilərinin ailə məsələlərinə müdaxilə etmələrinin qarşısını alaraq uşaq-valideyn münasibətlərini qoruduğunu iddia edib. İlon Maskın tutduğu siyasi mövqeyə gəlincə, onun bu addımı kifayət qədər əks-səda doğurub. Belə ki, bu qərardan sonra ştatın iqtisadi həcminin xeyli düşəcəyi gözlənilir. Qeyd edək ki, SpaceX-in Kaliforniyada 5 mindən çox işçisi var. Bu, ən azından onminlərlə varlı təbəqənin ştatı tərk etməsi deməkdir.

***Zərdüşt Quluzadə***

# Əli Kərimlinin "boykot" qərarı 37 min dollar mükafat aldı

***Azərbaycan xalqı özünün ən qürurverici tarixi dövrünü yaşayır. Hansı ki, bu dövrdə 30 il həsrətində olduğumuz Qarabağımızın azadlığına nail olunub, Şuşada, Xankəndidə və digər işğaldan azad edilmiş torpaqlarımızda üçrəngli bayrağımızın dalğalanması təmin edilib. Belə bir tarixi günlərdə dağıdıcı müxalifət və xaricdəki antimilli ünsürlər qəpik-quruşa aldanaraq xalqın sevincinə acılıq qatmağa çalışırlar.***

Lakin anlamırlar ki, cəhdləri nəticəsiz qalacaq. Çünki xalq onların kimlərdən qidalandıqlarını və məkrli niyyətlərinin nədən ibarət olduğunu yaxşı bilir. Hazırkı məqamda daha çox şər və böhtanlara, dezinformasiya xarakterli məlumatların yer ayırmaları sentyabrın 1-də keçirilməsi planlaşdırılan parlament seçkiləri ilə bağlıdır. Üzdəniraq məxluqlar bu yolla cəmiyyətdə seçkilərlə bağlı aparılan müzakirələrə, qızğın diskussiyalara zərər vurmağa ümid edirlər. Bu çirkin kampaniyada Azərbaycanın dağıdıcı müxalifəti ilə yanaşı, "Azadlıq" qəzetinin saytı, "BBC Azərbaycan", "Azadlıq" radiosu, Sevinc Osmanqızının TV-si, Trol Sadıqlının idarə etdiyi "Azad söz" internet TV və digərləri də fəal iştirak edirlər.

### Dağıdıcı müxalifət və onların tör-töküntüləri trol qismində oturublar sosial şəbəkələrdə

Yerli və xarici qüvvələrin eyni mövqedən çıxış etmələri tərəflərin vahid mərkəzdən xüsusi tapşırıq aldıqlarını göstərir. Bu yolla məkrli tərəflər seçki ilə bağlı cüzi də olsa problem və ya çatışmazlıq aşkarlayıb, onun ətrafında şou yaratmaqdır. Lakin istəkləri baş tutmayacaq. Kifayət qədər seçki təcrübəsinə malik olan seçicilər bu dəfə də ayıq-sayıqdır və təbii ki, yüksək fəallıqla seçki məntəqələrinə gedərək layiqli namizədə səs verəcəklər. Ən əsası isə azad və demokratik seçkinin keçirilməsi ilə müstəqil Azərbaycanın tarixinə möhtəşəm seçki ənənəsi yazılacaq. Hazırkı məqamda görünən ondan ibarətdir ki, dağıdıcı müxalifət və onların tör-töküntüləri trol qismində oturublar sosial şəbəkələrdə, ancaq şər yazır, böhtanlar səsləndirirlər. Yenə də Ə.Kərimli əsas rolda çıxış edir. Yazdığı statusları fərqlidir. Gah Qərbin müdafiəçisi rolunda çıxış edib, Fransanın müstəmləkə altında saxladığı xalqların nümayəndələrinin Bakı şəhərində qurultay keçirmələrinə qarşı çıxdığını bildirir, gah da "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forum haqqında özünün qara rəngdən ibarət fikirlərini ifadə edir. Aradabir sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkiləri haqqında sərsəm proqnozlarını qeyd edir. "Boykot"dan çox danışıb, stəkanda fırtına yaratmağa çalışsa da, dolaşıq, ziddiyyətli fikirləri ilə özünü rüsvay etmiş olur.



### Pulla alınan "boykot" qərarı

Diqqətçəkən məqam ondan ibarətdir ki, "boykot" şousu AXCP və Milli Şura üzvlərinin ziyanına işləsə də, Ə.Kərimlinin maraqlarını təmin edir. O mənada ki, iyulun 21-də ABŞ-ın "Sewap" təşkilatı tərəfindən təşkil olun "seçkidən seçkiyə" mövzusunda müzakirələrdə AXCP 4 siyasi təşkilat arasında "ən fəal" seçilib. Müzakirələrin maraqlı nəticəsi isə Azərbaycanda keçiriləcək parlament seçkilərini "boykot" etdiyinə görə Əli Kərimlinin 37 min ABŞ dollar qrantla mükafatlandırılmasıdır. Səthi araşdırmalardan sonra məlum olur ki, qrantın Əli Kərimli üçün ayrılmasında Ermənistanın ABŞ-dakı səfiri Lilit Makunsin müstəsna rolu olub. Xatırlatmaq lazımdır ki, 2023-cü il noyabrın 15-də ABŞ Konqresinin Nümayəndələr Palatasında "Dağlıq Qarabağın gələcəyi" mövzusunda keçirilmiş dinləmələrdə Lilit Makunsin və Konqresin Avropa məsələləri üzrə alt komitəsinin sədri Tomas Kin xüsusi fəallıq nümayiş etdirmişdilər. Hələ dinləmələrdən öncə bu iki məxluq Tomas Kinin bağ evində görüşüb, müzakirələr aparmış və yekdil fikrə gəlmişdilər. Sonradan ABŞ Konqresi üçün tarixi ləkə olan anormal qərar qəbul edildi. Həmin absurd qərarın müəllifləri qondarma təşkilat yaradıb, onun vasitəsi ilə Azərbaycanın daxili proseslərini zədələməyə çalışan Ə.Kərimli kimi təxribatçıları qrantla mükafatlandırırlar. Söz yox ki, bu faktın üzə çıxması müəyyən qaranlıq məsələlərə işıq salmış olur. Aydın olur ki, Ə.Kərimli seçkiləri "boykot" qərarı verməklə məqsədi yeni qrantlar almaqdır. Başa düşür ki, AXCP seçkiyə qatılmaqla heç nə əldə edə bilməyəcək. Əksinə, seçkilərin təbliğat-təşviqat dövründə insanlar onları qınaq obyektinə tutub, ittiham edəcəklər. Reallıqla barışmalı olan Ə.Kərimli sözə və ələbaxan Cəmil Həsənlini də özünə yoldaş etməklə parlament seçkilərini "boykot" etmək kimi yersiz və əhəmiyyətsiz qərar qəbul etdi.

Xaricdəki antimilli ünsürlərin Ə.Kərimlinin qurduğu tora düşmələri gözlənilndir. Ən azı ona görə ki, xaricdəki ünsürlər başsız bədəni xatırladırlar. Antimilli məxluqların düşünmək, nəyin yaxşı, nəyin pis olduğunu anlamaq imkanına malik deyillər. Onlarınkı ancaq qoyun sürüsü kimi, kim hara sürdü və apardı ora getməkdir. Digər tərəfdən, idarəedici mərkəzlər də xaricdəki antimilli ünsürləri dağıdıcı müxalifətlə eyni yolu getməyə və eyni tezisi həyata keçirməyə məcbur edir. Əks halda aqibətləri yaşadıqları ölkələrdən Azərbaycana deportasiya olunmaları deməkdir. Bu isə onlar üçün arzuedilən deyil. Ona görə də, ürəklərindən olmayan zəhəri udmağa məcburdurlar. Bu oyunların necə başlayıb, hansı formada bitəcəyini Ə.Kərimli azdan-çoxdan başa düşür. İctimai qınağın, ittihamlarında olduğunu nəzərə alır. Lakin qarşılığında qrantlar əldə edir ki, bu da onun üçün ən pisin nisbətən yaxşı variantıdır.

***İLHAM ƏLİYEV***

ANALİZ




# Mina terroru - Ermənistanın əsl simasının ifşası




***Azərbaycan ərazisi dünyada ən çox minadan çirklənmiş 5 ölkə sırasındadır. Minalar işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası prosesinə, daha doğrusu, "Böyük qayıdış"a mane törətməklə yanaşı, Azərbaycan vətəndaşlarının mina qurbanına çevrilməsinə səbəb olur. Şübhəsiz, elə minaları basdıran hayların da məqsədi mümkün qədər çox sayda azərbaycanlının qətlinə nail olmaq, azad etdilən ərazilərimizə əhalinin qayıdışını maksimum uzatmaqdan ibarət olub.***






Bəli, həmin minalar ölkəmizdə insan təhlükəsizliyi üçün böyük təhdid təşkil etməkdə davam edir. Yəni, ərazimizin 12 faizinə səpələnmiş 1,5 milyon mina və naməlum sayda partlayıcı qalıqlar insanlar üçün ciddi risklər yaratmaqdadır. Elə iyulun 19-da Kəlbəcər rayonunun Ağdaban kəndi ərazisində minalardan təmizlənməmiş ərazidə baş vermiş mina hadisəsi bunu bir daha sübut edir. Hadisə nəticəsində 1969-cu il təvəllüdlü Hüseynov Xəlifə Həsən oğlu piyada əleyhinə minaya düşərək xəsarət, onun arxasınca hərəkət edən 1978-ci il təvəllüdlü Məmmədov Səməndər Əliqəmə oğlu isə həmin mina partlaması nəticəsində qəlpə yaraları alıb. Daha sonra hadisə yerinə onlara köməyə gedən 1976-cı il təvəllüdlü Qaraşov Rahim Əşrəf oğlu ikinci minanın partlaması müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Faktla bağlı Kəlbəcər rayon prokurorluğunda araşdırma aparılır.

Ümumilikdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 3400-dən çox vətəndaşımız minalardan zərər çəkib. Onlardan təxminən 600-ü ölümlə nəticələnib. Mina partlayışına görə həyatını itirənlərdən 358-i uşaq, 30-u qadındır. Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov bir neçə gün öncə jurnalistlərə açıqlamasında bildirib ki, mina hadisələrinin təxminən 70 faizi keçmiş təmas xəttindən kənarda olan ərazilərdə baş verir: "Bu o deməkdir ki, məntiqsiz olaraq hərbi əməliyyatların aparılmadığı hallarda da minalar basdırılıb".

Rəsmi Bakının dəfələrlə müraciətlərinə baxmayaraq Ermənistan Azərbaycanı mülki ərazilərdə basdırılmış minalarla bağlı tam və dəqiq informasiya ilə hələ də təmin etməyib. Özlərini dünyada sülhün və ədalətin tərəfdarı kimi göstərməyə çalışan dövlətlər, həmçinin beynəlxalq təşkilatlar bu bəşəri cinayətlə bağlı Ermənistanı sərt şəkildə qınamırlar, hələ də susurlar. Halbuki, mina xəritələrini tam şəkildə Azərbaycana vermək Ermənistanın, bunu sərt şəkildə tələb etmək isə beynəlxalq təşkilatların humanitar və mənəvi borcudur. Ermənistan tərəfindən otuz ilə yaxın işğal dövründə basdırılmış minaların dəqiq xəritələrinin təqdim olunmaması isə onların beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn norma və prinsiplərinə hörmətsizliyini açıq şəkildə nümayiş etdirir. Yeri gəlmişkən qeyd edək ki, Vətən müharibəsinə qədərki dövrdə heç bir erməninin minaya düşməməsi belə qənaətə gəlməyə əsas verir ki, basdırılmış minalarla əlaqədar Ermənistanda dəqiq və müfəssəl xəritələr vardır.

Bütün bu kimi çətinliklərə baxmayaraq, Azərbaycan dünyada tətbiq olunan ən müasir və qabaqcıl texnologiyalardan istifadə etməklə bu günə qədər aparılan minatəmizləmə prosesi nəticəsində 143 min hektara yaxın sahə 124 mindən çox mina və partlamamış hərbi sursatlardan təmizlənib. Lakin minalanmış ərazilər bundan daha genişdir. Doğrudur, bir sıra ölkələr və beynəlxalq təşkilatlar Azərbaycan ərazilərinin minalardan təmizlənməsi prosesinə dəstək verirlər. Lakin bu beynəlxalq dəstək yetərincə deyil. Bu mənada bu sahədəki bütün ağırlıq yerli mütəxəssislərimizin üzərinə düşür. Yeri gəlmişkən qeyd edək ki, iyulun 16-da BMT-nin Nyu-York şəhərində yerləşən mənzil-qərargahında Yüksək Səviyyəli Siyasi Forum çərçivəsində "Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq və heç kəsi kənarda qoymamaq naminə mina və partlamamış hərbi sursat fəaliyyətləri" adlı tədbirdə BMT Baş katibinin köməkçisi, BMT İnkişaf Proqramının (UNDP) Avropa və MDB üzrə regional direktoru İvana Zivkoviç bildirib ki, UNDP mina çirklənməsi və partlamamış hərbi sursatlarla mübarizə aparan ölkələri dəstəkləyir: "Bu dəstəyə ən yaxşı təcrübələrlə bağlı informasiya mübadiləsi, süni intellekt, dron, peyk kimi yeni texnologiyalarla bağlı məlumat paylaşımı, heyvanların, o cümlədən itlərin mina fəaliyyətlərinə cəlb olunması sahəsində təcrübə mübadiləsi daxildir. Azərbaycanın da bu sahədə çox yaxşı təcrübəsi var. Mən buna şəxsən şahid olmuşam. ANAMA və UNDP arasında Mükəmməllik Mərkəzi yaradılıb. Bu mərkəz gələcək dövrlər üçün fəaliyyətləri inkişaf etdirir və ilkin mərhələdə Azərbaycana, növbəti mərhələdə isə regionda və dünyanın digər bölgələrində yerləşən ölkələrə dəstək məqsədi daşıyır".

***Qvami Məhəbbətoğlu***



# “Ermənistan Avropa İttifaqının müstəmləkəsinə çevrilir”







*XİN rəhbərinin keçmiş müavini bildirib ki, Ermənistan Avropa İttifaqında xoş qarşılanmır. “Keçmiş həmkarlarım, eləcə də hələ də Avropa strukturlarında işləyən tanışlarım deyirlər ki, Ermənistan Avropa İttifaqında xoş qarşılanmır, baxmayaraq ki, onlar İrəvanın İttifaqa üzvlük istəyini alqışlayırlar”, - Ermənistan xarici işlər nazirinin keçmiş müavini Avet Adonts deyib.*





Onun sözlərinə görə, həm iqtisadi inkişaf baxımından, həm də demokratik inkişaf baxımından Ermənistan belə bir məsələ qaldırmağa belə hazır deyil. O, Aİ-nin İrəvanın bu istəyindən istifadə edərək, anti-Rusiya və anti-İran gündəliyi çərçivəsində öz məqsədləri üçün təklif irəli sürəcəyini edib. Adonts əlavə edib ki, Ermənistan bu maraqların toqquşduğu tramplinə çevrilib, uzun illərdir ki, rəsmi Yerevan buna imkan verirdi.

“Dünya siyasətində gərginliyin pik həddə çatdığı, planetin düşərgələrə bölündüyü bir vaxtda Ermənistanın Aİ-yə daxil olması ilə bağlı referendum keçirmək niyyəti ilə bağlı indiki bəyanatlar Rusiya və İrana arxa çevirmək, üzünü Qərbə doğru döndərmək deməkdir. Bizim əsas çətinliklərimiz təhlükəsizliklə bağlıdır, halbuki Aİ-nin bu məsələdə heç bir aləti yoxdur”,- Ermənistan XİN rəhbərinin keçmiş müavini vurğulayıb.

Erməni KİV-ləri qeyd edir ki, iyulun 1-də Ermənistanın baş naziri Nikol Paşinyan referendumun keçirilməsinin mümkünlüyünü şübhə altına alıb və bu, plebisit təşəbbüsünün hakim partiyanın müttəfiqi olan qərbyönlü partiyaların reytinqini artırmaq məqsədi daşıyan piar kampaniyası olduğuna dair qiymətləndirmələri təsdiqləyib.

Ermənistan XİN rəhbərinin keçmiş müavini qənaətlərində nə dərəcədə haqlıdır? Doğrudanmı onlar Ermənistandan öz məqsədləri üçün istifadə etməyə çalışırlar?

Bu suallarını xarici ekspertlər “Caliber” analitik mərkəzinə açıqlayıblar. Şərhləri oxucularımıza təqdim edirik.

Türkiyəli politoloq, tarix elmləri doktoru, Moskva Dövlət Universitetinin Asiya və Afrika Araşdırmaları İnstitutunun elmi işçisi Mehmet Perinçekin qeyd etdiyi kimi, Ermənistanın Aİ-yə daxil olması tamamilə real olmayan layihədir.



“Birincisi, Ermənistan nə iqtisadi, nə də siyasi baxımdan belə bir addıma hazır deyil. Aİ heç vaxt belə bir ölkəni öz sıralarına qəbul etməyəcək. Amma avropalılar Ermənistandan öz eqoist məqsədləri üçün istifadə etmək üçün müntəzəm olaraq bu məsələni qaldıra bilirlər. Çünki Qərb Cənubi Qafqazın işlərinə qarışmaq alətlərini itirib və orada xaos yaratmaq, yenidən regional işlərə qarışmaq üçün ona yeni rıçaqlar lazımdır. Bu məqsədlə Qərb Ermənistandan dönə-dönə istifadə etməyə hazırdır. Bu ölkə heç vaxt Aİ-nin bərabərhüquqlu tərəfdaşına çevrilməyəcək. Avroatlantik məkanda Ermənistan yalnız bir rol oynamağa qadirdir- yem rolunu. Bu ölkə Qərbin aqressiv planlarının həyata keçirilməsində ancaq piyada ola bilər”,- deyə tarixçi əmindir.

Onun sözlərinə görə, Ermənistandakı qərbyönlü qüvvələr erməni xalqını aldatmaq üçün gələcəkdə Aİ-yə ehtimal olunan üzvlük mövzusunu gündəmə gətirirlər.

“Onlar ümid verir və bununla ölkə daxilində yeni rejim yaratmağa başlayırlar. Bunun vasitəsilə Ermənistanı regional inteqrasiyadan, xüsusən də Rusiyadan qoparmaq istəyirlər. Erməni xalqına deyirlər- sənin gələcəyin Azərbaycanın, Türkiyənin, Rusiyanın yanında deyil, Qərbin yanındadır. Və bu yolla erməni xalqını təhrik edir, qonşularına qarşı neqativ əhval-ruhiyyə səpirlər.

İndi Cənubi Qafqazda yeni dövr açılıb. Söhbət Azərbaycanla Ermənistan arasında sülhdən, Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşmasından gedir. Bu yolla və xüsusən də “3+3” platforması vasitəsilə region ölkələri bu məkanda sabitliyi və iqtisadi inteqrasiyanı təmin edə bilərlər. Bu isə Qərbin planlarına uyğun gəlmir. Məhz buna görə də Ermənistanın Aİ-yə daxil olması perspektivi ilə bağlı plan işə salındı. Və onlar bu ümiddən sui-istifadə edəcəklər, eyni zamanda bu ölkənin suverenliyini məhv edəcəklər. Onlar öz məqsədlərinə çatmaq üçün Ermənistanı silaha çevirmək istəyirlər.

Biz bunu Türkiyədə gördük. Türkiyənin Aİ-yə daxil olması vədi də bir saxtakarlıq idi və hələ də qalır. Bununla da Türkiyənin Aİ-nin qapısını tərk etməməsinə, Avrasiya ölkələri ilə əməkdaşlıq etməməsinə çalışırlar. Amma Türkiyəni heç vaxt Aİ-yə qəbul etməyəcəklər. Yəni, bütün bu illər ərzində onlar Türkiyənin milli suverenliyinə ancaq zərər vurub, onun qarşısına daha çox yeni giriş şərtləri qoyublar. İndi də Ermənistana belə şərtlər qoyulmağa başlayacaq. O, artıq AB-nin müstəmləkəsinə çevriləcək,” Perinçək hesab edir.

Tarix elmləri namizədi, Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər Milli Tədqiqat İnstitutu (Moskva) Postsovet Araşdırmaları Mərkəzinin baş elmi işçisi Stanislav Pritçin Ermənistan Respublikası xarici işlər nazirinin keçmiş müavini Adonetsin qiymətləndirmələri ilə ümumiyyətlə razıdır, çünki siyasi realizm nöqteyinəzərindən, praqmatik nöqteyinəzərdən Ermənistanın, hətta uzunmüddətli perspektivdə belə, nəhayət, Avropa Birliyinə üzv ola biləcəyi şansı yoxdur.

“Ona görə də bu təşəbbüs ətrafında bütün hərəkətlər- referendumun keçirilməsi, dialoqun başlanması prosesinin təşəbbüskarı- əslində tamamilə populist xarakter daşıyır. Əminəm ki, Paşinyanın bütün siyasi karyerası ilə Ermənistanın həqiqətən də Aİ-yə yaxınlaşması və hətta üzvlüyə namizəd ola biləcəyi bir an olmayacaq”,- alim deyir.

Amma başqa bir məsələ də var, o qeyd edib: “Avropaya bu cür yanaşma yaratmaqla Ermənistan özünü kifayət qədər zəif vəziyyətdə qoyur. Yəni təzyiq və təsir alətləri Aİ-dən yaranır. Məsələn, Gürcüstanda gördüyümüz kimi. Tiflis Brüsselin istədiyini etmir, sonra onu maliyyə yardımından, namizəd statusundan məhrum edir, hər şeyi dondurur və bütün bunları yalnız Gürcüstan Aİ-nin bütün tələblərini yerinə yetirməyə razılaşdıqda bərpa edəcəyini deyor.

Təxminən eyni şey Ermənistanla da baş verəcək, çünki o, heç bir bonus və ya imkan olmadan öhdəliklər götürür. Və öhdəliklər Qərbdən gələn bütün bu göstərişlərin şübhəsiz yerinə yetirilməsini nəzərdə tutur. Buna uyğun olaraq, Ermənistan rəhbərliyi milli maraqları deyil, bunu necə gördükləri və Qərb ölkələrinin nəyə ehtiyacı olduğu əsasında qərarlar qəbul etməyə məcbur olacaq. Sxem təxminən belə görünəcək” deyə Pritçin yekunlaşdırır.

***Tərcümə - Elçin Bayramlı***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti çərçivəsində hazırlanıb.*







# Dünyamızın məhv olmaqda olan ağciyərləri

***Meşələr dünyanın ağciyərləridir, çünki canlıların yaşaması üçün lazım olan oksigenin böyük hissəsini təmin edir. Meşələr bitki və heyvanlar üçün təbii su mənbəyidir. Həmçinin meşələr bitki örtüyündə və torpaqda böyük miqdarda karbon saxlayır ki, bu proses də iqlimə müsbət təsir edərək qlobal istiləşmənin qarşısını alır. Su buxarını kondensasiya edərək yağışın yağmasına səbəb olur. Meşələr vəhşi təbiəti qoruyur və heyvanların sağ qalmasını təmin edir. Bundan əlavə, meşələr daşqınların, sürüşmələrin, uçqun təhlükələrinin, həmçinin səhralaşmanın və havanın çirklənməsinin qarşısını alır.***



Quru ərazisinin üçdə birini əhatə edən və canlı aləmin yarıdan çoxuna ev olan meşələr dünya ekosisteminin ən vacib qollarından biri hesab olunur. Quruda yaşayan canlıların 80%-nin sağ qalması meşələrdən asılıdır. Meşələrin məhvinə görə sayı azalan heyvanların ölümü ekosistemdə böyük bir boşluq yaratmaq deməkdir. Növünə, yaşına və iqliminə görə bəzi istisnalar olsa da, orta hesabla bir ağac bir gündə 10-12 insanın ehtiyacı olan qədər oksigeni istehsal edir. Yəni sadəcə bir ağac kəsilsə, 10-12 adam 1 günlük oksigen ehtiyatını itirir. Başqa sözlə,1 ağac insan ömrünün bir günü deməkdir. Üstəlik, meşələr təxminən 1,6 milyard insan üçün qazanc mənbəyidir.

Yanğınlar meşələrin mövcudluğu üçün ən böyük təhlükədir. Xüsusilə, yay aylarında təbii və ya insan faktorları nəticəsində baş verən yanğınlar yüz illər boyu böyüyən ağacların qəfil məhvinə, təbii tarazlığın pozulmasına, meşədə canlı növlərinin və təbii yaşayış yerlərinin nəsli kəsilməsinə, torpaqda üzvi maddələrin itirilməsinə səbəb olur. Meşə yanğınları adətən hiss olunmadan başlayır, sürətlə yayılır, bütün meşəni məhv edir. Yanğınlar ildırım çaxması, vulkan püskürməsi və yüksək temperatur kimi səbəblərdən, həmçinin səhlənkarlıq, ehtiyatsızlıq və qəsdən baş verir.

Son illər dünyanın müxtəlif ərazilərindəki meşələrdə böyük yanğınlar baş verir. Bu yanğınlar səmanın hislə örtülməsinə və Günəşin önünün bağlanmasına səbəb olur. Yanğınlar zamanı milyonlarla canlı məhv olur, dünyanın canlı orqanizm balansı pozulur. Yanğınlar həmçinin kənd təsərrüfatı ərazilərində məhsuldarlığa təsir edir, bunun da nəticəsində dünya miqyasında qıtlıq baş verə bilər.

Meşədə təhlükəsizlik tədbirləri görülmədən yandırılan və söndürülməmiş ocaq, meşəyə atılan kibrit və ya söndürülməmiş siqaret kötüyü, günəş şüasının qızdıraraq otları yandıracaq qədər istitdiyi şüşələr böyük yanğınlara səbəb ola bilər. Bir meşənin yanması orada yaşayan minlərlə canlının tələf olması, atmosferin çirklənməsi, dolayısı ilə insanlara təhlükədir.

Dünyanın ən böyük meşə yanğınlarını sıralasaq, ötən əsrə getməli olacağıq. 1871-ci ildə Çikaqoda baş verən yanğın tarixə “Böyük Çikaqo yanğını” kimi düşdü. İki gün davam edən yanğın nəticəsində 300 nəfər həlak olub, 100 min insan evsiz qalıb, 17 mindən çox ev yararsız hala düşüb. Bu yanğın ölkəyə 200 milyon dollar ziyan vurmuşdu.

1919-cu ildə Kanadanın Edmonton şəhərinin şimalında başlayan meşə yanğınını xatırlayarıq 5 milyon hektar ərazini yararsız hala saldı. Yüzlərlə insanın evsiz qaldı, 11 nəfər öldü. 1950-ci ildə Çhinchaqa yanğını 222 gün davam etdi. Ram altına alına bilməyən yanğın zamanı 245 kilometr uzunluğunda olan meşə zolağı məhv oldu.

Ümumiyyətlə, Kanada meşə yanğınların ən çox zərər görmüş ölkədir desək, yanılmarıq. 1989-cu ildə baş vermiş Manitoba yanğını da Kanadaya böyük zərər verdi. Bu əyalət Kanada yerləşir və yanğın zamanı 8,1 milyon hektar ərazi külə döndü. Kanada bu yanğını illər sonra, 2014-cü ildə təkrar yaşadı. Meşə yanğınları ilk günlər 3,5 milyon hektar ərazini əhatə etsə də alovun sürətlə yayılması nəticəsində 8,4 milyon hektar əraziyə zərər dəydi. Bu yanğınların baş verməsi zamanı hətta ABŞ-ın bəzi əyalətlərində, Qərbi Avropada havanın keyfiyyəti ciddi şəkildə pisləşdi.

1939-cu ildə Avstraliyanın Viktoriya ştatındakı yanğınlar da təbiətə böyük zərər vurdu. Kiçik bir ərazidə başlayan yanğın güclü külək nəticəsində 5 milyon hektar meşəni külə döndərdi. Bu təbii fəlakət nəticəsində 71 nəfər öldü.

2003-cü ildə Sibir tayqası yanğınını da dünyanın təbiətinə dəyəyn ziyan kimi qeyd edə bilərik. Ekeoloji tarazlığın pozulması ilə Sibirdə temperaturun yüksəlməsi və donmuş torpaqların sürətlə isinməsi təbiətə böyük zərər verdi və beləcə tarixin ən böyük meşə yanğınlarından biri baş verib. Həmin yanğında 47 milyondan artıq hektarda olan meşə kül oldu. Ozon təbəqəsinin bu yanğından böyük zərər görməsi danılmazdır.

2010-cu ildə Boliviyadakı ciddi quraqlıq hökm sürürdü. 1,5 milyon hektar ərazidəki meşənin yanması Boliviya hökumətini ciddi mənada təşvişə saldı. Ölkənin öz imkanları yetmədiyindən su təyyarəsi təminatı və yanğını söndürmək üçün Boliviya, Braziliya və Argentinadan kömək istədi. Təkcə 2010-cu ildə bu ölkədə 47 mindən çox yanğın hadisəsi qeydə alınmışdı. Ölkənin təxminən 4 milyon hektar ərazisi yanğına təslim oldu. 1910 -cu ilin yayında Ameriakada da ciddi yanğınlar törədildi. Aydaho, Montana və Vaşinqtonda dəhşətli meşə yanğınları baş verdi. Bu ABŞ Meşə Xidmətinin qurulmasından beş il sonraya təsadüf edirdi. Ayrı-ayrılıqda həmin yay 736 yanğın qeydə alındı və 3 milyon hektar ərazi yararsız vəziyyətə düşdü.

2020-ci ildə Avstraliyadakı meşə yanğınları da təbiətə ciddi zərər verdi. 2019-cu ilin iyun ayında başlayan yanğın 240 gün davam etdi və nəticədə təxminən 8 milyon hektar ərazi yandı, 2500-dən çox bina yaşayış üçün yararsız hala düşdü, 28 nəfər həyatını itirdi, 1.1 milyarddan çox heyvan isə tələf oldu. Ekosistemə ən çox zərər verən yanğınlardan bəhs edərkən bu yanğın xüsusi qeyd edilir.

Türkiyədə, Antalyanın Manavqat bölgəsində 2021-ci ildə başlayan meşə yanğınları Türkiyənin bir çox şəhərlərinə yayıldı. Əksəriyyəti Aralıq dənizi, Egey, Mərmərə, Qara dəniz və Anadolu bölgələrində- ümumilikdə 53 vilayətdə baş verən 299 meşə yanğınında 8 nəfər həyatını itirdi, 150 min hektardan çox meşə sahəsi yandı, minlərlə heyvan tələf oldu.

Bütün bu faklar çox ciddi bir həyəcan siqnalıdır. Son 100 ildə dünya meşələrinin 50 faizindən çoxu məhv olub. Bu prosesin qarşısı alınmasa qlobal kataklizmlər başlayacaq və planetimizdə canlı aləm məhv olacaq.

***Lalə Mehralı***

SƏS
23 iyul
2024-cü il

## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Sağlığında mirası başqa şəxsə verənin ailəsinə pay düşür?

MÜNASİBƏT



***“Vərəsəlik hüququ çox geniş sahədir və Konstitusiyanın 29-cu maddəsinin VII hissəsinə əsasən, dövlət vərəsəlik hüququna təminat verir". Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Xanlar Sətullayev deyib. O bildirib ki, vərəsəlik münasibətləri Mülki Məcəllə ilə tənzimlənir: "Mülki Məcəllənin onuncu bölməsi Vərəsəlik hüququnu əhatə edir.***

Mülki Məcəlləyə görə, ölmüş şəxsin (miras qoyanın) əmlakı başqa şəxslərə (vərəsələrə) qanun üzrə və ya vəsiyyət üzrə və ya hər iki əsasla keçir. Qanun üzrə vərəsəlik (ölmüş şəxsin əmlakının qanunda göstərilmiş şəxslərə keçməsi) o zaman qüvvədə olur ki, miras qoyan vəsiyyətnamə qoymur, yaxud vəsiyyətnamə tamamilə və ya qismən etibarsız sayılır. Qanun üzrə vərəsəlik zamanı vərəsələr miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər, habelə miras qoyanın ölümündən sonra doğulmuş uşaqları ola bilərlər. Vəsiyyət üzrə vərəsəlik zamanı vərəsələr miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər, habelə miras qoyanın sağlığında mayası bağlanmış və onun ölümündən sonra doğulmuş şəxslər, bu şəxslərin onun uşaqları olub-olmadığına, habelə hüquqi şəxslər olub-olmadığına baxmayaraq, ola bilərlər.

Mirasda məcburi pay Mülki Məcəllənin 1193-cü maddəsində öz əksini tapmışdır. Həmin maddəyə görə, vəsiyyət edənin uşaqlarının, valideynlərinin və arvadının (ərinin) vəsiyyətnamənin məzmunundan asılı olmayaraq mirasda məcburi payı vardır. Bu pay qanun üzrə vərəsəlik zamanı onlara çatası payın yarısını (məcburi pay) təşkil etməlidir. Məcburi payı tələb etmək hüququ isə mirasın açıldığı an əmələ gəlir. Bu cür tələb hüququ vərəsəlik üzrə keçir. Məcburi payı tələb etmək hüququ olan şəxs qarşısında digər vərəsələr birgə borclu kimi çıxış edirlər. Mülki Məcəllənin 1159.1.1 və 1193-cü maddələrinin tələblərinə uyğun olaraq, qanun üzrə vərəsələrdən birinci növbə vərəsələr (vəsiyyət edənin uşaqları, valideynləri və arvadı (əri)) vəsiyyətnamənin mövcudluğundan asılı olmayaraq məcburi pay hüququna malik olan şəxslərdir.

Mirasda məcburi pay hüququ məcburi vərəsələrə (vəsiyyət edənin uşaqları, valideynləri və arvadına (ərinə)) vəsiyyətnamənin mövcudluğundan asılı olmayaraq həcmi qanunvericiliklə müəyyən edilmiş qaydada verilən minimum pay haqqıdır. Mülki Məcəllənin 1193-cü maddəsinə əsasən, vəsiyyət edən vəsiyyətnamə əsasında bu şəxsləri mirasdan məcburi pay almaq hüququndan məhrum edə bilməz. Məcburi payın tam həcmi vəsiyyət tapşırığını və ya ümumi faydalı məqsədlər üçün hər hansı hərəkəti yerinə yetirməkdən ötrü nəzərdə tutulan əmlak da daxil olmaqla, bütün mirasdan müəyyənləşdirilir”.

”Bəzən miras qoyan vəfatından öncə bağışlama müqaviləsi ilə əmlakını əvəzsiz özgəninkiləşdirməklə qanuni vərəsələrini həmin mirasdan məhrum edə və ya miras əmlakın həcmini azalda bilər. Təbii ki, mülkiyyətçinin öz əmlakına dair sərəncam verməsi, bağışlaması onun konstitusion hüquqlarından biridir. Lakin Mülki Məcəllənin 667-ci maddəsində bağışlama müqaviləsinin bağlanması zamanı vərəsəliklə bağlı müddəalarla mülkiyyətçi üçün müəyyən məhdudiyyətlər tətbiq edilmişdir. Həmin maddəyə görə, fəaliyyət qabiliyyətli şəxs öz əmlakına dair bağışlama yolu ilə o halda sərəncam verə bilər ki, həmin əmlak ər-arvadın ümumi mülkiyyəti və ya vərəsəlik hüququ ilə məhdudlaşmış olmasın. Mülki Məcəllənin 1200-cü maddəsində isə qeyd edilir ki, miras qoyan əşyanı üçüncü şəxsə bağışladıqda, məcburi paya hüququ olan şəxs, əgər bağışlanmış əşya mirasa daxil olsaydı, onun məcburi payının arta biləcəyi məbləğdə məcburi payın tamamlanmasını tələb edə bilər. Əgər mirasın açıldığı vaxtadək hədiyyənin verilməsindən iki il keçirsə, hədiyyə hesaba alınmır. Qanun bu maddə ilə məcburi paya hüququ olan şəxslərin məcburi paylarının artırılmasını tələb etmək hüquqlarını müddətlə məhdudlaşdıraraq, yalnız hədiyyə kimi verilməsindən iki il keçməyən əşya hesabına həmin payın tamamlanmasını mümkün hesab etmişdir. Mülki Məcəllənin 1200-cü maddəsinin məzmunundan da göründüyü kimi, tamamlanma tələbinin təmin edilməsi üçün tələb irəli sürən şəxs məcburi pay hüququna malik olan şəxslər sırasına aid olmalı, əşya bağışlama yolu ilə üçüncü şəxsin mülkiyyətinə verilmiş olmalı, əşyanın bağışlanmasından iki ildən artıq müddət keçməməli, həmin əşya mirasa daxil olsa idi, miras əmlakın həcmi artmış olmalıdır.

Həmçinin qeyd edim ki, qanunda məcburi pay almaq hüququndan məhrumetməyə dair norma da müəyyən edilmişdir. Mülki Məcəllənin 1203-cü maddəsinə görə, məcburi pay almaq hüququndan məhrumetmə, ümumiyyətlə, vərəsəlik hüququndan məhrumetməyə səbəb olan hallar olduqda mümkündür. Məcburi pay almaq hüququndan məhrumetməni miras qoyan hələ öz sağlığında məhkəməyə müraciət etmək yolu ilə həyata keçirə bilər. Məcburi pay almaq hüququndan məhrumetmə barəsində məhkəmənin çıxardığı qərar mirasın açıldığı andan qüvvədə olur. Miras qoyanın hələ öz sağlığında məhkəməyə müraciət etdiyi, lakin qərarın onun ölümündən sonra qəbul edildiyi halda da bu cür nəticə baş verir” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# XƏBƏRDARLIQ: Bu gün tempratur 40 dərəcəyə qədər yüksələcək

***İyulun 23-də Bakıda 36, rayonlarda 38 dərəcə isti gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin günün ikinci yarısında bəzi şəhərətrafı ərazilərdə qısamüddətli yağış yağacağı ehtimalı var.***



Şimal-qərb küləyi gündüz mülayim cənub-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 20-25° isti, gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 754 mm civə sütunu olacaq. Nisbi rütubət 50-70 % olacaq.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin bəzi dağlıq və dağətəyi ərazilərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 21-26° isti, gündüz 33-38° isti, dağlarda gecə 13-18° isti, gündüz 21-26° isti olacaq.

## Bakıda avtomobil körpəni vuraraq öldürüb

Baklda avtomobil iki piyadanı vurub. SİA xəbər verir ki, hadisə Xətai rayonunun General Şıxlinski küçəsində qeydə alınıb. Belə ki, 2006-cı il təvəllüdlü Kənan Rzazadə idarə etdiyi ”Hyundai Sonata” markalı avtomobillə yolu keçən, 1994-cü il təvəllüdlü Ruhiyyə Tanrıverdiyeva və 2021-ci il təvəllüdlü Seymur Məmmədlini vurub. Hər iki piyada xəstəxanaya yerləşdirilib. Həkimlərin səylərinə baxmayaraq, körpənin həyatını xilas etmək mümkün olmayıb. Faktla bağlı cinayət işi başlanılıb.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**